# Balaca Şahzadə

Antuan dö Sənt-Eqzüperi

*Mənbə: AZERİ.org, 2003*
*Fransız dilindən tərcümə edənlər: Əziz Gözəlsoy, Yaqut Qurbanova*
*Kitabın nəşrini Fransanın Azərbaycandakı səfirliyi maliyyələşdirmişdir. Kitab 2001-ci ildə Bakı şəhərində çap olunub. Kitabı AZER.com saytında əldə etmək olar və ya (994-12) 61-89-04 (ev), (994-50) 329-74-43 (mobil) nömrəli telefonlar vasitəsilə kitabın tərcüməçisi Əziz Gözəlsoya müraciət edə bilərsiniz.*
*Veb üçün hazırlayan: Arzu Ağayeva*




Leon Vertə

Bu kitabı yaşlı bir adama həsr etdiyim üçün uşaqlardan üzr istəyirəm. Bağışlanmağa ciddi əsasım da var: həmin bu yaşlı adam dostlarımdan ən yaxınıdır. Bağışlanmağa daha bir əsasım var; bu yaşlı adam hər şeyi başa düşməyə qadirdir, hətta uşaq kitablarını da. Üçüncü bir əsasım da var: bu yaşlı adam Fransada yaşayır, orada isə bu saat aclıqdır, soyuqdur. Bu məqamda onun təsəlliyə böyük ehtiyacı var. Bütün bu üzrxahlıqlar kifayət deyilsə, onda bu kitabı yaşlı dostumun uşaqlığına həsr edirəm. Axı bütün yaşlılar əvvəlcə uşaq olmuşlar, amma bunu xatırlayanlar indi çox azdır. Beləliklə, ithafımı düzəldirəm:

Leon Vertin uşaqlıq çağına ithaf edirəm.

****

Antuan dö Sənt-Eqzüperi 29 iyun 1900-cu ildə Liyonda anadan olub. Onun uşaqlıq illəri Amberyö yaxınlığında yaşayan xalasıgildə keçib, təhsilini İsveçdə Sənt-Krua-Mansda, sonra isə Parisdə alıb və dənizçilik məktəbinə daxil olmağa hazırlaşıb. Lakin bu məktəbə daxil olmaq üçün təşkil olunmuş müsabiqədən keçə bilməyib, gələcək yazıçı qərara gəlir ki, incəsənət məktəbinə daxil olmaq üçün mühazirələrə qulaq assın.

1921-ci ildə Strasburqda, hava qüvvələri qoşununda hərbi xidmətə başlayır. Orada təyyarə sürməyi öyrənir və o vaxtdan bəri öz taleyini təyyarə sürücülüyü peşəsinə bağlayır. 1923-cü ildə hərbi xidmətini başa vurandan sonra müxtəlif peşələrdə çalışıb. Yazı-pozu ilə məşğul olub, məqalələr yazıb çap etdirirdi. 1925-ci ildə ilk hekayəsi mətbuatda dərc olunub. Hekayə, yazıçının vurğunu olduğu uçuş macəralarından birinə həsr olunmuşdur.

1926-cı ildə Eqzüperi aviasiya cəmiyyətinə daxil olub və Tuluz-Cakarta poçt təyyarəsini idarə edib. Elə bu dövrlərdə, yəni 1929-cu ildə, o, "Cənub poçtu" əsərini yazmışdır. Meriöz və Giyome ilə birlikdə Eqzüperi Amerika-Fransa hava xəttinin açılmasını müzakirə etmək üçün Amerikaya gedir.

1931-ci ildə "Gecə uçuşu" əsərini yazır və əsər öz müəllifini dünya miqyasında tanıdır, ona böyük şöhrət gətirir.

1935-ci ildə Paris-Sayqon uçuşunda rekord qazanmaq üçün yarışlarda iştirak etsə də uğur qazana bilmir. 1938-ci ildə Nyuyork-Magillan adalarını hava xətti ilə birləşdirməyə cəhd göstərərkən ciddi xəsarət alır. Bir neçə ay Nyuyork xəstəxanalarında müalicə olunur və "İnsanların torpağı" adlı romanını çap etdirir.

İkinci dünya müharibəsi zamanı Alman işğalçılarına qarşı vuruşan Azadlıq ordusunda fəal iştirak edir. Amma o zaman təyyarə sürməyi ona qadağan etmişdilər, çünki Eqzüperi artıq yaşlı idi. Bununla belə yazıçı təkid edə-edə öz istəyinə çatır və yenidən təyyarənin şturvalı arxasına keçməyə nail olur. 1944-cü il iyun ayının 31-də Borqodan Korskaya uçur və bu onun son uçuşu olur və o bir daha geriyə qayıtmır.

Müharibə illərində Antuan dö Sənt-Eqzüperi özünün üç əsərini çap etdirir: "Hərbi pilot", "Girov götürülmüşə məktub" və "Balaca şahzadə".

Hər iki peşənin – təyyarəçilik və yazıçılığın – fədaisi olan A. Eqzüperi həyatda vur-tut 44 il yaşamışdı.

Ə. Gözəlsoy

## Epiloq

Bu, mənim üçün dünyanın ən gözəl və eyni zamanda ən kədərli mənzərəsidir. Bu, əslində əvvəlki səhifədəki həmin mənzərədir, amma mən onu sizə yaxşı göstərmək üçün bir daha çəkdim. Məhz burda balaca şahzadə ilk dəfə yer üzündə peyda olmuş, sonra isə qeyb olmuşdur. Əgər bir gün Afrika səhralarına səyahət etsəniz, bu mənzərəni tanımaq üçün ona diqqətlə baxın. Əgər bir gün siz ordan keçəsi olsanız, yalvarıram, tələsməyin, həmin ulduzun altında bir az ayaq saxlayın! Əgər onda bir uşaq sizə tərəf gələrsə, gülərsə, əgər onun qızılı saçları varsa və əgər onu sorğu-sual edəndə cavab verməzsə, siz, onun kim olduğunu anlayacaqsınız. Onda zəhmət olmasa, məni intizarda qoymayın, mənə təskinlik verin, onun qayıtması haqqında mənə tezliklə yazın…

## I

Altı yaşım olanda, keçilməz meşədən danışan "Olmuş əhvalatlar" adlı kitabda, əcaib və qəraib bir şəkil gördüm. Bu şəkildə yırtıcı heyvanı udan əfi bir ilan təsvir olunmuşdu. Budur şəklin surəti:



Kitabda yazılmışdı: Əfi ilanlar öz şikarlarını bütöv, çeynəmədən udurlar. Sonra onlar tərpənə bilmir və udduqlarını həzm etmək üçün altı ay sərasər yatırlar.

Onda, mən cəngəllik macəraları haqda uzun-uzadı düşündüm və rəngli qələmlə ilk şəklimi çəkdim. Çəkdiyim bir nömrəli şəkil bax belə idi:



Mən, bu şah əsərimi böyüklərə göstərdim və onun vahiməli olub-olmadığını soruşdum. Onlar isə "Adi bir şlyapa niyə də vahiməli olmalıdır?", - deyə rişxəndlə cavab verdilər.

Mənim şəklimdə şlyapa yox, udduğu fili həzm eləyən əfi ilan təsvir olunurdu. Onda, mən böyüklərə aydın olsun deyə, əfi ilanın daxildən görünüşünü çəkdim. Böyüklərin həmişə əlavə izaha ehtiyacı olur.

Böyüklər mənə əfi ilanı daxildən və xaricdən çəkmək əvəzinə coğrafiya, tarix, hesab və qrammatika ilə maraqlanmağı məsləhət gördülər. Altı yaşımda ikən gözəl rəssamlıq sənətini mən bax beləcə tərk etdim. Çəkdiyim 1 və 2 N-li şəkillərin uğursuzluğu məni ruhdan saldı. Böyüklər özü-özlüyündə heç vaxt heç nə başa düşmürlər, uşaqlar isə onlara hər dəfə bir şeyi izah etmək üçün yorulub əldən düşürlər.

Beləliklə, mən başqa peşə seçməli oldum və təyyarə sürməyi öyrəndim. Dünyanın bir çox ölkələrinə uçmuşam. Coğrafiya, doğrudan da, mənim çox karıma gəldi. İlk nəzərdən, mən Çini Arizonadan asanlıqla ayırırdım. Gecə vaxtı yolu azanda coğrafiyanı bilməyin faydası böyükdür.



Mənim bütün həyatım boyu çoxsaylı ciddi adamlarla hesabagəlməz təmaslarım olub. Böyüklər arasında çox olmuşam. Onları lap yaxından görmüşəm. Lakin, bütün bunlar onlara qarşı fikrimi dəyişə bilmədi.

Böyüklərdən mənə bir az sağlam düşüncəli görünəni rast gəldikdə, indiyə qədər saxladığım bir nömrəli şəklimi ona göstərir və bu barədə onun fikrini öyrənmək istəyirdim. İstəyirdim ki, bu adamın bir şey anlayıb-anlamadığını müəyyənləşdirim. Lakin, hər dəfə mənə eyni cavabı verirdilər: “Bu, şlyapadır”. Onda mən onlarla nə əfi ilanlardan, nə keçilməz meşələrdən, nə də ulduzlardan danışırdım. Mən onlarla anlama səviyyəsindən və qalstuklardan danışırdım. Belə bir ağıllı adamla tanış olduqlarından çox məmnun qalırdılar.

## II

Söhbət etməyə bir bəni-insan tapmadan, günlərim beləcə bir müddət tənhalıqda keçdi. Bu vəziyyət altı il əvvəl təyyarənin mühərrikinin xarab olub, Böyük Səhraya enməyə məcbur olduğum vaxta qədər davam etdi. Yanımda nə mexanik, nə sərnişin olduğundan, tək özüm bu çətin təmir işinin öhdəsindən gəlməyə cəhd etməli idim. Mənim üçün bu ölüm-dirim məsələsi idi. Bir həftəyə güclə çatacaq qədər içməyə suyum var idi.

Mən ilk gecəni, səhra qumları üstündə yatmalı oldum. Bu qəza yeri yaşayış yerlərindən min mil aralıda yerləşirdi. Gəmidə qəzaya uğramış, dəryanın ortasında salın üstündə tənha qalmış adamdan da betər təcrid olunmuşdum. Dan yeri sökülləndə, məzəli uşaq səsinin məni yuxudan oyatmasından doğan təəccübümü təsəvvür edin. O səs deyirdi:
– Lütfən… mənə bir qoyun şəkli çək!
– Nə dedin?
– Mənə bir qoyun şəkli çək…

İldırım vurmuş adam kimi sıçrayıb ayağa qalxdım. Gözlərimi yaxşı-yaxşı ovuşdurdum. Ətrafıma baxdım. Qarşımda, məni ciddi şəkildə nəzərdən keçirən çox qəribə balaca bir adam gördüm. Sonralar çəkə bildiyim onun ən yaxşı şəkli budur.



Amma, mənim bu şəklimdə o, əslində olduğundan əlbəttə az valehedicidir, az gözəldir. Bu mənim günahım deyil. Altı yaşımda, rəssamlıq sənətini öyrənmək istədiyim vaxt böyüklər məni ruhdan salmışdılar və məni inandırmışdılar ki, məndən rəssam çıxmaz. Mən də əfi ilanın zahiri və daxili görünüşünü çəkməkdən savayı bir şey öyrənməmişdim.

Təəccübdən bərəlmiş gözlərimi hardansa peyda olmuş bu xilqətə dikmişdim. Unutmayın ki, mən insan məskənindən min mil uzaqda idim. Bununla belə, bu oğlan nə yol azana, nə yorğunluqdan, aclıqdan, susuzluqdan və qorxudan ölənə oxşayırdı. Onda, yaşayış məskənindən min mil aralı, səhranın ortasında itmiş uşaq görkəmindən əsər-əlamət belə yox idi. Yavaş-yavaş özümə gəldim. Nəhayət, nitqim açılandan sonra ondan soruşdum:

– Bəs… sən burda nə edirsən?

O isə mənə çox ciddi bir şey deyirmiş kimi yavaş səslə təkrar etdi:

– Zəhmət olmasa… mənə qoyun şəkli çək…





Bu səhnə o qədər ağlasığmaz və əsrarəngiz idi ki, onun xahişindən boyun qaçırmaq heç cür olmazdı. Ölüm təhlükəsi ilə üzbəüz dayandığım bir vaxtda, yaşayış məskənlərindən min mil uzaqlarda şəkil çəkmək mənə ağılsız görünsə də, cibimdən bir vərəq və diyircəkli qələmimi çıxartdım. Amma, elə buradaca xatırladım ki, coğrafiyanı, tarixi, hesab və qrammatikanı yaxşı öyrənmişəm. Oğlana (bir az acıqlı tərzdə) bildirdim ki, şəkil çəkə bilmirəm. O isə mənə dedi:

– Eyib etməz. Mənə qoyun şəkli çək.

Heç vaxt qoyun şəkli çəkmədiyimə görə əvvəlki iki şəklimdən birini onun üçün təkrarən çəkdim. Bacardığım bu idi - əfi ilanın xaricdən görünüşü. Oğlanın mənə verdiyi cavabı eşidəndə heyrətləndim:

– Yox! Yox! Əfi ilan qarnında fil istəmirəm. Əfi ilan çox təhlükəlidir, fil isə nəhəngdir, çox yer tutur. Mənim planetim isə tamam balacadır. Mənə qoyun lazımdır. Mənə qoyun şəkli çək.

Nəhayət qoyun şəkli çəkdim.

O, şəklə diqqətlə baxdı, sonra isə:

–Yox!, - dedi, – Bu qoyun çox sısqadır, xəstədir. Ayrısını çək.

Ayrısını da çəkdim.

Dostum mehribanlıqla və iltifatla gülümsədi.

–Sən özün də yaxşı görürsən… bu, qoyun deyil, bu, qoçdur. Onun buynuzları var…

Mən, başqa bir qoyun şəkli çəkdim. Amma, bunu da əvvəlkilər kimi qəbul etmədi.

–Bu isə çox qocadır. Mənə elə qoyun lazımdır ki, çox yaşasın.

Burdaca səbrim tükəndi və motoru sökməyə tələsdiyimdən həmin bu şəkli cızma-qara edib ona verdim.



–Bax, bu yeşikdir. Sənin istədiyin qoyun isə, onun içindədir. – Ona ucadan izah etdim.

Lakin bu balaca tələbkar hakimimin üzünün işıqlandığını gördükdə, çox təəccübləndim:

–Mən məhz beləsini istəyirdim. Necə fikirləşirsən, bu qoyuna çoxmu ot lazım olacaq?

–Necə məgər?

–Çünki mənim yaşadığım yer çox balacadır…

–Onun üçün kifayət edər. Axı mən sənə lap balaca bir qoyun vermişəm.

O, başını şəklə tərəf əydi:

–Çox da balaca deyil… Hələ bir bax! O, yuxuya getdi…

Balaca şahzadə ilə tanışlığım bax belə oldu.

## III

Onun hardan gəldiyini öyrənmək üçün xeyli vaxt sərf etməli oldum. Mənə çoxlu sual verən balaca şahzadə mənim verdiyim sualları sanki eşitmirdi, bəlkə də özünü eşitməməzliyə vururdu. Yavaş-yavaş, təsadüfən və ötəri deyilmiş sözlər hər şeyi mənə aydınlaşdırırdı. Mənim təyyarəmi ilk dəfə görəndə (təyyarənin şəklini çəkməyəcəm, bu mənim üçün çətindir) o, soruşdu:
–Bu nə olan şeydir?
–Bu şey deyil. Bu uçur. Bu təyyarədir. Özü də mənim təyyarəmdir.

Mən ona uçduğunu başa sala-sala öyünürdüm. Onda o, dedi:
–Necə! Sən göydən düşmüsən?
–Bəli, - deyə təvazökarlıqla cavab verdim.
–Ah! Bu çox maraqlıdır…

Balaca şahzadə elə bir qəhqəhə çəkdi ki, məni qıcıqlandırdı. Mənim fəlakətimi ciddi qəbul edənlərdən xoşum gəlir. Sonra əlavə etdi:
–Deməli sən də göydən gəlmisən! Hansı planetdənsən?

Həmin anda onun səhrada qaibanə peyda olmasının bəzi məqamları mənim üçün aydınlaşdı.
–Deməli sən başqa bir planetdən gəlmisən?
Lakin o, cavab vermədi. Təyyarəyə baxa-baxa başını ahəstə-ahəstə buladı:
–Doğrudan da bu maşınla sən uzaqdan gələ bilməzdin…
O, uzun-uzadı xəyala daldı. Sonra isə, mənim çəkdiyim qoyunu cibindən çıxarıb öz sərvətinin tamaşasına daldı.

"Ayrı planetlər" haqqında bu yarı müəmmalı və natamam etirafın məni necə maraqlandırdığını təsəvvür edə bilməzsiniz. Bu barədə daha çox öyrənmək məqsədilə ondan soruşdum:
–Qəşəng oğlan, sən hardan gəlirsən? "Sənin evin" hardadır? Mənim qoyunumu hara aparmaq istəyirsən?



Dalğın və fikirli bir sükutdan sonra o, cavab verdi:
–Mənə verdiyin yeşik ona görə yaxşıdır ki, bu qoyunun evi olacaq, gecələr orda yatacaq.
–Əlbəttə, əgər sən səmimi olsan, mən sənə gündüzlər onu bağlamaq üçün kəndir də verəcəyəm. Bir dənə də paya.

Təklifim balaca şahzadəni heyrətləndirdi:
–Bağlamaq? Axı nəyə görə!
–Onu bağlamasan, hara gəldi gedər və azar…

Bu zaman dostum yenə qəhqəhə çəkib güldü:
–Axı, o, hara gedə bilər?
–Hara gəldi. Qoyuna nə var…

Onda, balaca şahzadə ciddi tərzdə dedi:
–Bunun qorxusu yoxdur, yaşadığım planet onsuz da balacadır!

Sonra, bəlkə də bir az qəmgin halda əlavə etdi:
–Düz irəli getməklə çox da uzağa gedə bilməz…

Beləliklə, mən çox əhəmiyyətli ikinci bir şeyi də öyrəndim: Balaca şahzadənin planeti adi bir evdən azacıq böyükmüş.





Bu, məni çox təəccübləndirə bilməzdi. Bilirdim ki, Yer, Yupiter, Mars, Venera kimi iri planetlərdən başqa (onlara belə adlar vermişdilər) yüzlərlə başqaları da vardı. Lakin onlar bəzən o qədər balacadırlar ki, teleskopda da onları görmək çətindir. Astronom belə kiçik planetlərdən hər hansı birini kəşf edəndə ona ad əvəzinə nömrə verirdi. Məsələn, 3251-ci asteroid.

Balaca şahzadənin hansı planetdən gəlməsini demək üçün məndə ciddi əsaslar vardı, o, B 612-ci asteroiddən gəlmişdi. Bu asteroid indiyə kimi yalnız bircə dəfə teleskopda görünmüşdü, onu 1909-cu ildə bir türk astronomu görmüşdü.

Türk astronomu öz kəşfi barədə o zaman Beynəlxalq Astronomiya Qurultayında geniş məlumat vermişdi. Amma onun türk geyiminə görə heç kəs ona inanmamışdı. Böyüklər belədir də!

Xoşbəxtlikdən bir türk diktatoru, asteroid B 612-nin gətirəcəyi şöhrəti itirməmək naminə öz xalqını ölüm cəzası ilə hədələməklə avropasayağı geyinməyə məcbur etdi. Həmin astronom öz kəşfini 1920-ci ildə, qəşəng qiyafədə yenidən nümayiş etdirdi. Bu dəfə hamı ona inandı.

Böyüklər anlasın deyə mən sizə asteroid B 612 haqda təfsilatı ilə danışdım, hətta onun nömrəsini də sizlərə etibar edib dedim. Böyüklər rəqəmləri xoşlayır. Siz onlara yeni bir dostunuz haqqında danışsanız, onlar əsas məsələlər barədə sizi sorğu-suala tutmayacaqlar. Onlar sizdən heç vaxt soruşmayacaqlar: "Dostunuzun səsinin ahəngi necədir? Hansı oyunları xoşlayır? Kəpənək kolleksiyası edirmi?" Onlar sizdən soruşurlar: "Neçə yaşı var? Neçə qardaşı var? Çəkisi nə qədərdir? Atası nə qədər qazanır?" Yalnız bu suallara cavab alandan sonra onu tanıdıqlarını deyəcəklər. Əgər böyüklərə desəniz: "Damında göyərçinlər, pəncərələrində ətirşah çiçəyi olan qırmızı kərpicdən tikilmiş qəşəng bir ev gördüm…" Onlar bu evi təsəvvürlərinə gətirə bilməyəcəklər. Onlara demək lazımdır: "Yüz min franklıq ev gördüm". Onda böyüklər yerbəyerdən uca səslə deyəcəklər: "Nə qiyamət evdir!"





Siz onlara desəniz ki, "Sübut odur ki, balaca şahzadə yaşayıb, qəşəng oğlan olub, gülürdü, istəyirdi qoyunu olsun. Əgər o, qoyun istəyibsə, deməli yaşayıb". Belə desəniz böyüklər çiyinlərini çəkəcək və sizinlə uşaq kimi rəftar edəcəklər. Amma onlara desəniz ki: "Balaca şahzadə asteroid B 612-dən gəlib, onda inanacaqlar, sorğu-sualdan sizin canınız qurtaracaq. Böyüklər bax belədir. Onlardan inciməyə dəyməz. Uşaqlar böyüklərə qarşı çox iltifatlı olmalıdır.

Amma həyatı başa düşən bizlər rəqəmlərə, əlbəttə, istehza ilə baxırıq! İstərdim bu əhvalatın nəqlinə sehirli nağıllarda olduğu kimi başlayım. Məmnuniyyətlə belə başlardım: "Biri vardı, biri yoxdu, balaca bir şahzadə

vardı. Onun yaşadığı planet onun özündən bir az böyük olardı. Şahzadənin yaxşı bir dosta ehtiyacı vardı…" Həyatın nə olduğunu başa düşənlər dərhal anlayardılar ki, bunların hamısı həqiqətdir.

Doğrusu, istəmirəm ki, kitabımı dəyərsiz bir şey hesab etsinlər, onu əyləncə xatirinə oxusunlar. Bu xatirələri danışdıqca çox kədərlənirəm. Dostumun öz qoyunu ilə çıxıb getməsindən indi artıq altı il keçir. Əgər mən onun təsvirini verməyə, şəklini çəkməyə çalışıramsa, bütün bunlar yalnız onu unutmamaq üçündür. Dostu unutmaq pis və kədərli şeydir. Hamının dostu olmur, hamı dost qazana bilmir ha! Mən rəqəmdən başqa qeyri şeylə maraqlanmayan böyüklər kimi olmaqdan qorxuram. Bax elə buna görə də bir qutu rəng və rəngli karandaş almışam. Bu yaşda təzədən rəsmə qayıtmaq asan iş deyil. Nə vaxtsa, altı yaşında əfi ilanın daxildən və xaricdən görünüşünü çəkmişəm, vəssalam, çəkdiklərim vur-tut bunlar olub, daha şəkil çəkməyə cəhd göstərdiyim olmayıb. Əlbəttə, çalışacam balaca şahzadəyə daha çox oxşayan portretlər çəkim. Amma çəkəcəyim şəkillərin ona tam oxşayacağına əmin deyiləm. Bir də görürsən şəklin biri ona oxşayır, o biri isə heç oxşamır. Boy-buxun çəkəndə də səhvə yol verirəm. Bax bu şəkildə balaca şahzadə çox böyük görünür, o birisində isə çox balaca çıxıb. Paltarının rəngini də pis xatırlayıram. Çalışıram zənd ilə onun şəklini həm elə, həm də belə çəkim. Bəzi məqamların, bəzi daha mühüm təfsilatların verilməsində də səhvə yol verəcəm. Amma bu səhvləri gərək mənə bağışlasınlar. Dostum heç vaxt izahat verməyi sevməzdi. Məni özü kimi hesab edirdi, elə bilirdi ki, onun bildiklərinin hamısını mən də bilirəm. Mən bağlı qutunun içindəki qoyunları görə bilmərəm, o isə görürdü. Görünür, mən bir az böyüklərə bənzəyirəm. Yəqin ki, bu qocalıqdandır.

## V

Onun planeti, planeti tərk etməsi və səyahəti haqqında mən hər gün nəsə öyrənirdim. O bu barədə az danışırdı. Hər şey tədricən baş verirdi, təsadüfi sorğu-sual nəticəsində. Bax, beləcə üçüncü gün baobab* dramını da bu yolla öyrəndim.

Bu dəfə də söhbət yenə qoyundan gedəndə balaca şahzadə qəfildən, ciddi bir şübhəsi olan adam kimi məndən soruşdu:

–Qoyunlar doğrudanmı kol-kos yeyir?

–Bəli, düzdür.

–Ah! Mən çox şadam.

Başa düşmədim ki, qoyunların kol-kos yeməsi nə üçün bu qədər əhəmiyyətli bir hadisə hesab olunur. Balaca şahzadə əlavə etdi:

–Deməli, onlar baobabları da yeyirlər, eləmi?





Balaca şahzadəni başa saldım ki, baobablar kol-kos deyil ki, qoyunlar onu yesin, onlar kilsədən də hündür ağaclardır, o, böyük bir fil sürüsü gətirsə də, bir baobab ağacını yeyib qurtara bilməz.

Fil sürüsü fikri balaca şahzadəni güldürdü. O dedi:

–Onda filləri bir-birinin üstünə mindirmək lazım gələrdi…

Sonra ağıl və məntiqlə əlavə etdi:

–Baobab ağacları bu həddə böyüyə-böyüyə gəlib çatırlar, təbii ki, əvvəlcə onlar balaca olur.

–Düz deyirsən! Amma nə üçün sən istəyirsən ki, qoyunların balaca baobabları yesin?

O cavab verdi: "Bəs necə!" Sanki söhbət ən adi, hamıya məlum olan bir həqiqətdən gedirdi. Bu məsələni mən özüm başa düşmək üçün xeyli fikirləşməli oldum.

Doğrudan da balaca şahzadənin planetində, başqa planetlərdə olduğu kimi, həm faydalı, həm də zərərli otlar bitirdi. Yaxşı toxumdan nəticə etibarilə yaxşı ot, pis toxumdan pis ot yetişir. Amma, toxumlar gözlə görünmür. Onlar torpağı başına çəkib yerin dərinliklərində mürgüləyirlər. Bu mürgü onlardan birinin qəribə tərzdə

---

* İsti ölkələrdə bitən yoğun gövdəli nəhəng ağac

oyanmasına qədər davam edir. Sonra zoğ atır, qəddini düzəldir, əvvəlcə zərərsiz görünən, utana-utana heyrətamiz dərəcədə gözəl, zərif və balaca göy zoğ günəşə tərəf boylanır.

Söhbət turpun və ya gülün zoğundan gedərsə, onda qoy onlar necə istəyirlərsə elə də böyüsünlər. Amma söhbət ziyanlı bitkilərdən gedəndə, onları tanıyan kimi dərhal kökündən qoparıb atmaq lazımdır. Balaca şahzadənin planetində də dəhşətli toxumlar vardı… bunlar baobab toxumlarıdır. Planetin torpağı bu toxumlarla doludur. Bir baobabı vaxtında tanımasan sonra ondan yaxa qurtarmaq qeyri-mümkün olacaq. Bütün planeti başdan-başa bürüyəcək. Öz kökləri ilə torpağı dəlik-deşik edəcək. Xüsusilə planet balacadırsa və baobablar orada çoxdursa, planeti məhv edə bilərlər.



"Bu intizam məsələsidir", - balaca şahzadə kiçik bir fasilədən sonra mənə dedi. "Səhər özünü qaydaya salandan sonra böyük qayğıkeşliklə planetini də qaydaya sal. Müntəzəm olaraq baobabları kökündən qoparıb atmağı özünüzə borc bilin. Körpə ikən baobablar qızılgül koluna çox oxşayır, onları fərqləndirən kimi, ziyankarın kökünü dərhal kəsin. Bu darıxdırıcı iş olsa da çətin deyil, asan işdir".

Bir gün balaca şahzadə mənə məsləhət gördü ki, bir şəkil çəkim və baobab haqqında bu fikirləri uşaqların beyninə yeritmək mümkün olsun. Onlar bir gün səyahətə çıxsalar, bu şəkil onların karına gələr. Bəzən gördüyünüz işə fasilə verib onu müvəqqəti dayandıra da bilərsiz. Söhbət əgər baobablardan gedirsə onları özbaşına buraxmaq olmaz, bu həmişə fəlakətdir. Mən bir planet tanıyıram, orada bir tənbəl yaşayır. O, üç kol bitkiyə qarşı diqqətsiz olub, onların hansının gül kolu, hansının baobab olmasına fikir verməyib.

Balaca şahzadənin göstərişini nəzərə alaraq mən həmin planetin şəklini çəkdim. Mən öyüd-nəsihət verməyi sevmirəm. Amma baobab təhlükəsi insanlara o dərəcədə az məlumdur ki, bu və ya digər asteroiddə onun fəsadlarına düçar olmaq riski çox böyük olduğundan bu dəfə təmkinimi pozmalı oldum. Mən dedim: "Uşaqlar! Baobablardan özünüzü gözləyin!" Çoxdan dostlarımı bu təhlükədən xəbərdar etmək istəyirdim, elə bir təhlükə ki, onlar özləri də bilmədən onun lap yaxınlığından dəfələrlə ötüb keçmişlər. Bax elə buna görə mən bu şəkil üzərində bu qədər zəhmət çəkmişəm, sərf etdiyim əməyə də heyfim gəlmir. Dostlarım də mənim kimi yanından sürtünə-sürtünə ötüb keçdikləri baobabı tanımayıblar. Belə bir dərs verməyim zəhmətinə dəyər. Bəlkə də siz bir-birinizdən soruşacaqsınız: Nə üçün bu kitabda baobablardan savayı başqa böyük şəkil yoxdur? Cavabı çox sadədir: Çalışmışam, amma nail ola bilməmişəm. Mən baobabları çəkəndə bunun çox vacib və təxirəsalınmazlığı fikri məni vəcdə gətirmişdir.

## VI

Eh! Balaca şahzadə! Sənin həyatının necə kədərli keçməsini yavaş-yavaş başa düşdüm. Uzun vaxtdan bəri sənin yeganə əyləncən günəşin qürubundan aldığın şirinlik olub. Həyatının bu kiçik məqamını mən sənin gəlişinin dördüncü günü, səhər öyrəndim. Onda sən mənə demişdin:
–Günəşin batmasını çox sevirəm. Gedək günəşin qürubuna tamaşa edək…
–Hələ gözləmək lazımdır.
–Nəyi gözləyək?
–Gözləyək ki, günəş qüruba tərəf ensin.
Onda sən qəribə bir görkəm aldın, öz-özünə güldün və sonda mənə dedin:
–Özümü öz evimizdəki kimi hiss edirəm!



Doğrudan da, Amerika Birləşmiş Ştatlarında günorta çağı olanda hamı bilir ki, Fransada gün batır. Günəşin batması səhnəsinə tamaşa etmək üçün bir dəqiqənin içində Fransaya getmək kifayətdir. Bədbəxtlikdən Fransa çox uzaqdır. Amma sənin lap balaca planetində stulunu bir neçə addım kənara çəkməklə sən hər dəfə istədiyin vaxt qaşqaralan vaxta, günəşin qürubuna tamaşa edə bilirsən…
–Bir gün günəşin batmasını mən 43 dəfə seyr etdim!

Az sonra əlavə etdin:
–Bilirsənmi… adam qəmgin olanda günəşin batmasına tamaşa etmək istəyir…
–Deməli bir gündə Günəşin batmasına 43 dəfə baxanda çox kədərli olubsan, eləmi? Amma balaca şahzadə cavab vermədi sualıma.

VII

Beşinci gün, yenə qoyunun sayəsində, balaca şahzadənin həyatının bu gizli məqamı da mənə bəlli oldu. Gözlənilmədən, müqəddiməsiz-zadsız sərt halda, uzun müddətdən bəri sakitcə bu nəticəyə gəlibmiş kimi məndən soruşdu:
–Kol-kosları yeyən qoyun yəqin gülləri də yeyir, eləmi?
–Qoyun qarşısına çıxan ot-ələfin hamısını yeyir.
–Tikanlı güllərimi?
–Bəli, hətta tikanlı gülləri də.
–Bu tikanlar nəyin karıdır, nəyə lazımdır görən?
Onu bilmirdim. Başım qarışmışdı motorun bərk sıxılmış bir boltunu açmağa. Çox qayğılı idim, çünki motorun ciddi nasazlığı bir tərəfdən, içməli suyun qurtarması təhlükəsi digər tərəfdən məni daha çox narahat edirdi.
–Tikanlar nəyə lazımdır ki?

Balaca şahzadə verdliyi suala cavab almayınca əl çəkən deyildi. Bolt da məni lap hövsələdən çıxarmışdı və ona görə də balaca şahzadəyə başdansovdu cavab verdim:
–Tikanlar heç nəyin karıdır, güllər onu qəsdən, acıqca yetirir.
–Oh! Belə de!



Azacıq bir sükutdan sonra o mənə kinli bir nəzər salaraq:
–Mən inanmıram sənə! - dedi: Güllər zəif, həm də sadəlövhdür. Bacardıqları kimi yaşayır. Öz tikanları ilə özlərini cəsur göstərmək istəyirlər. Onlar elə hesab edirlər ki, tikanları olsa hamı qorxar onlardan.

Mən cavab vermədim. O anda mən öz-özümə deyirdim: “Əgər bu bolt açılmasa, çəkiclə sındıracam onu! Balaca şahzadə məni öz fikirlərimdən yenə də ayırdı:
–Sən elə hesab edirsən ki, güllər…
–Yox canım! Yox! Mən heç nə hesab etmirəm, inanmıram.

Beləcə ağlıma gələn ilk cavabı verdim. Məgər görmürsən mən ciddi bir işlə məşğulam!

O, heyrətlənmiş halda mənə baxdı.
–Ciddi işlə məşğulsan?!

Balaca şahzadə ona eybəcər görünən bir şeyin üstünə əyildiyimi seyr edirdi, əlimdə çəkic vardı, barmaqlarım sürtkü yağına bulaşmışdı.
–Sən lap böyüklər kimi danışırsan! - dedi.

Bu məni bir az utandırdı. Amma o, heç şeyə məhəl qoymadan amansızcasına əlavə etdi:

–Sən hər şeyi qarışdırırsan… hər şeyi qatıb-qarışdırdın!

O doğrudan da bərk əsəbləşmişdi. Külək onun qızılı saçlarını pırtlaşdırırdı. O dedi:
–Mən bir planet tanıyıram, orada qırmızısifət bir cənab var. O ömründə gül iyləməyib, heç zaman heç bir ulduza baxmayıb, heç vaxt kimsəni sevməyib, rəqəmləri cəmləməkdən başqa heç bir məşğuliyyəti olmayıb. Və bütün günü sənin kimi hey təkrar edir: “Mən ciddi adamam! Mən ciddi adamam!” Bununla da fəxr edir, təkəbbüründən şişib dağılır. Amma bu adam deyil. Göbələkdir!
–O nədi?
–Göbələk!
Balaca şahzadənin bənizi qəzəbdən ağappaq olmuşdu.

Milyon illərdir ki, güllər tikan yetirir. Milyon illərdir ki, qoyunlar gülləri, çiçəkləri yeyir. Əgər tikanların heç kimə, heç bir faydası yoxdursa, nə üçün çiçəklər var qüvvələrilə çalışaraq tikan yetirir. Məgər bunu anlamaq ciddi məsələ deyil? Qoyunlarla güllərin müharibəsi əhəmiyyətsiz şey deyilmi?… Bu qırmızısifət, gombul cənabın hesabından daha ciddi, daha əhəmiyyətli deyil? Mənim yaşadığım planetdə yeganə bir gül var ki, ondan heç bir yerdə tapmaq olmaz, o tənha güldür, əgər balaca bir qoyun elədiyini bilmədən bir səhər həmən gülü məhv etsə bu əhəmiyyətsizmi sayılır!

O pörtmüşdü, yenidən sözə başladı.
–Əgər kimsə milyonlarla ulduzların arasında yeganə olan bir gülü sevirsə, özünü xoşbəxt saymaq üçün kifayətdir ki, o adam ulduzlara baxsın. O öz-özünə deyəcək: “Mənim Gülüm bax hardasa oralardadır…” Əgər qoyun gülü yesə, həmin adam üçün sanki bütün ulduzlar sönür! Məgər bu da əhəmiyyətsiz sayılır!

Daha artıq heç nə deyə bilmədi. O, birdən hönkürtü ilə ağladı. Gecə düşmüşdü. Alətləri bir kənara qoydum. Çəkic, balta, susuzluq və ölüm mənə gülünc gəlirdi. Ulduzda, planetdə mənim Yer adlı planetimdə təsəlliyə ehtiyacı olan balaca bir şahzadə vardı, o ağlayırdı. Mən onu qucağıma alıb layla dedim, yırğaladım onu. Ona deyirdim: “Sənin sevdiyin gül təhlükə qarşısında deyil… Sənin qoyunun üçün buruntac çəkəcəyəm… Sənin gülün üçün isə şəbəkə şəkli çəkərəm. Dəmir çəpərin içində onu heç bir qoyun yeyə bilməz. Mən…” Bilmirdim daha nə deyim. Özümü narahat hiss edirdim. Bilmirdim onun ürəyini necə ələ alım, ora necə girim… Göz yaşları dünyası nə qədər əsrarəngizmiş.

## VIII

Bu gülü çox tezliklə daha yaxşı öyrəndim. Balaca şahzadənin planetində bir cərgəlik ləçəklə bəzənmiş az yer tutan, heç kəsi narahat etməyən sadə güllər çox idi. Onlar səhərlər otların arasında pardaqlanıb açılar, axşamlar isə solub gedərdilər. Bu tənha çiçək hardansa bura düşmüş toxumdan əmələ gəlmişdi. Balaca şahzadə onu nəzərdən qoymurdu, çünki bu cücərti o biri cücərtilərdən fərqli idi, onlara oxşamırdı. Nə bilmək olar, bəlkə bu baobabın təzə bir növüdür? Çox keçmədi ki, kol daha boy atmadı, üstündə qönçələr göründü. İri bir qönçənin yavaş-yavaş böyüməsini əvvəldən axıra qədər izləyən balaca şahzadə hiss edirdi ki, o qönçədən nəsə möcüzəli bir şey çıxacaq. Çiçək öz yaşıl kasacığında özünə rövnəq verməkdən usanmırdı. O, qayğıkeşliklə özünə münasib rənglər seçirdi, rəngarəng libasını yavaş-yavaş geyinirdi; ləçəklərini bir-bir nizamlayırdı. O, lalə kimi səliqəsiz, üst-başı əzik-üzük çıxmaq istəmirdi öz kasacığından. O gözəlliyin bütün təravəti ilə açılmaq istəyirdi. Bəli! O, naz-qəmzəli bir afət idi. Onun əsrarəngiz bər-bəzəyi günü-gündən uzanırdı, açılmaq bilmirdi ki, bilmirdi. Budur, bir səhər düz gün doğan vaxtı o, tam vüsətilə açıldı.





Böyük zəhmətdən sonra gözəl zövqlə bəzənib-düzənmiş dilbər əsnəyə-əsnəyə dedi:
–Eh! Güclə oyandım… Üzr istəyirəm… Üst-başım hələ qaydasında deyil…

Balaca şahzadə heyrətini boğa bilməyərək:
–Necə də gözəlsiniz! - dedi.
–Doğrudanmı elədir? - deyə gül mülayim səslə soruşdu. Mən günəşlə eyni vaxtda doğulmuşam…

Balaca şahzadə başa düşdü ki, hörmətli qonaq o qədər də təvazökar deyildi, amma çox şəfqətli və cazibədar idi.
–Deyəsən, səhər yeməyinin vaxtıdır, axı.
Lütfən mənim qayğıma qalın, - deyə təravətli gül əlavə etdi.

Bu təklifdən çaş-baş qalmış balaca şahzadə suçiləyəni tapıb təmiz su ilə onu doldurdu və gülü suladı.

Tezliklə məlum oldu ki, gülcığaz təkəbbürlü və ədalı bir gözəldir. Özünün naz-qəmzəsi və buyruqları ilə balaca şahzadəni cana doydurmuşdu. Məsələn, bir gün özünün dörd tikanından dəm vuran gül balaca şahzadəyə dedi:
–Lap iti caynaqlı pələnglər mənə heç nə edə bilməzlər!
–Mənim planetimdə pələng yoxdur, - balaca şahzadə etiraf etdi, digər tərəfdən pələnglər ot-ələf yemir.
–Mən ot-ələf deyiləm ha, - gül sakitcə cavab verdi.
–Bağışlayın məni…
–Düzü, mən pələnglərdən qorxmuram, amma yelçəkəndən bərk qorxuram. Sizdə arakəsmə olmaz ki?

"Yelçəkən dəhşətli şeydir…, bitkilər ondan çox qorxur, - deyə balaca şahzadə əlavə etdi. Bu çiçəyin xasiyyəti, görünür, çox ağırdı…"
–Axşam mənim üstümə örtük çəkin. Bura çox soyuqdur. Planetiniz rahat deyil. Amma mənim gəldiyim yer…

Birdən susdu. O, toxum halında buraya gəlib çıxmışdı. O, başqa planetlər barədə heç bir təsəvvürə malik ola bilməzdi. Açıq-aşkar yalan danışdığına görə gülcığaz özünün alçaldığını başa düşüb utandı, iki, üç dəfə öskürdü ki, balaca şahzadənin onun qarşısında, onun yalanının açılmasında günahkar olmasını hiss etdirsin.
–Bu arakəsmə nə oldu…?
–Elə onu axtarmağa gedirdim ki, siz danışmağa başladız!

Gül yenə yalandan öskürməyə başladı ki, qoy balaca şahzadə peşmançılıq və vicdan əzabı çəksin.

Balaca şahzadənin gülə böyük rəğbəti və məhəbbəti olsa da, az sonra qəlbində ona qarşı şübhələr baş qaldırdı. Onun mənasız sözlərini ciddi qəbul edərək hər şeyi ürəyinə saldı və özünü bədbəxt saydı.





"Mən gərək ona heç qulaq asmayaydım, - mənə ürək qızdıraraq dedi, - Güllərə qulaq asmaq, onları dinləmək yox, onlara baxmaq və onların ətrini iyləmək lazımdır. Mənim gülüm planetimə ətir saçırdı, amma ondan ləzzət ala bilmirdim. Pələng, caynaq söhbəti məni elə qıcıqlandırdı ki, lap mütəəssir oldum… Bu əhvalat məni mütəəssir etməli idi, həyəcanlandırmalı idi. Belə də oldu…"

Mənə bir də etibar edərək dedi: "O zaman heç nə başa düşə bilmirdim. O gülü mən sözlərinə görə yox, hərəkətinə görə mühakimə etməliydim. O mənim üçün ətir saçır, həyatımı nurlandırırdı. Mən ondan qaçmamalıydım! Onun misgin hiylələri arxasındakı incəliyi və nəvazişi başa düşməliydim. Güllər çox ziddiyyətli olur" Mən isə gənc idim, hələ sevməyi əməlli-başlı bacarmırdım.

## IX

O bu planetdən getmək üçün mən elə başa düşdüm ki, köçəri quşlardan istifadə edib. Yola düşəcəyi axırıncı gün səhər tezdən öz planetini yaxşıca silib-süpürüb. Fəaliyyətdə olan vulkanlarını səliqə ilə təmizləyib. Onun fəaliyyətdə olan vur-tut iki vulkanı vardı. Onların üstündə səhər yeməyini qızdırmaq balaca şahzadə üçün rahat idi. Bu iki vulkandan başqa onun sönmüş bir vulkanı da vardı. O deyirdi: "Nə bilmək olar, hər şeyi əvvəlcədən görmək qeyri-mümkündür!" Buna görə sönmüş vulkanı da təmizlədi. Vulkanlar yaxşı təmizlənsə, onlar sakit, eyni vamla, püskürmədən yanırlar. Vulkan püskürməsi sobadan çıxan oda bənzəyir. Biz Yer

kürəsinin sakinləri vulkanlarımızı təmizləmək üçün çox azıq və acizik. Buna görə də onlar bizə olmazın ziyan vurur.





Balaca şahzadə bir az qəmgin, bir az fikirli halda baobabların axırıncı kollarını kökündən qopartdı. Ona elə gəlirdi ki, bir daha buraya qayıtmayacaq. Amma bu sadə və adəti iş ona bu səhər son dərəcə xoş gəldi. O, axırıncı dəfə gülü sulayıb qurtarandan sonra və onu örtüyün altına qoymağa hazırlaşanda qəhər onu boğdu, ağlamaq istədi.

–Əlvida, - gülə dedi.

Amma gül ona cavab vermədi.

–Əlvida, - deyə bir daha təkrar etdi.

Gül öskürdü. Amma bu öskürəyin onun zökəm olmasına heç bir aidiyyəti yox idi.

–Mən axmaq olmuşam, - deyə Gül nəyahət dilləndi. Bağışla məni. Çalış xoşbəxt olasan.

Balaca şahzadə məzəmmət olunmadığını görəndə təəccübləndi. Əlində şüşə örtük həyəcanlı halda yerindəcə donub qalmışdı. Bu sakit mehribanlığın mənasını anlaya bilmirdi.

–Əlbəttə, səni sevirəm, - Gül dedi. Sənin bundan xəbərsiz olmağının günahı məndədir. İndi bunun əhəmiyyəti yoxdur. Amma sən də mənim kimi axmaq oldun. Çalış xoşbəxt olasan… O örtüyü qoy kənara, ona daha ehtiyac yoxdur.

–Bəs külək olsa…

–Mən bir o qədər soyuqlamamışam… Gecənin sərinliyi məni sağaldar. Axı mən güləm.

–Birdən heyvanlar, həşəratlar səni…

–Mən gərək iki, üç kəpənək qurdunun ağırlığına tab gətirəm. Axı, kəpənəklərlə tanış olmaq istəyirəm. Bu mənə çox maraqlı gəlir. Kəpənəklər də olmasa mənə kim baş çəkəcək? Sən onda çox-çox uzaqlarda olacaqsan. Böyük heyvanlardan isə qorxmuram. Mənim tikanlarım var.

–Gül sadəlövhlüklə özünün dörd tikanını göstərdi. Sonra dedi:

–Çox uzatma, bütün bunlar mənə dözülməz gəlir. Sən getməyi qət etmişdin, çıx get.

Gül istəmirdi ki, balaca şahzadə onun ağlamasını görsün. O, çox məğrur gül idi…

## X

Balaca şahzadə öz planetinə qonşu 325, 326, 327, 328, 329 və 330-cu asteroidlərin yerləşdiyi regionda idi. Orada bir məşğulluq tapmaq və bir şey öyrənmək üçün axtarışa başladı.

Birinci asteroiddə bir kral yaşayırdı. Kral özünün sadə, lakin əzəmətli taxt-tacında əyləşmişdi. Onun əynində al-qırmızı libası, sincab xəzindən paltosu vardı.

–Eh! Bax bu da rəiyyət, - balaca şahzadəni görən kimi kral ucadan dedi.

–O məni heç vaxt görmədiyi halda məni necə tanıya bildi! - deyə balaca şahzadə fikirləşdi.

O bilmirdi ki, dünya krallar üçün adi şeydir, bütün insanlar onlar üçün rəiyyətdir.

–Yaxın gəl, qoy sənə bir yaxşıca baxım, - kral dedi və birisininin hökmdarı olmaqdan qürrələndi.



Balaca şahzadə ətrafa nəzər salaraq oturmağa yer axtardı, amma planet sincab xəzindən tikilmiş əla palto ilə başdan-başa tutulmuşdu. O, ayaq üstə qalmalı oldu və çox yorulduğundan əsnədi.
–Kralın hüzurunda əsnəmək mövcud qayda-qanuna ziddir, - deyə monarx irad tutdu. Bunu sənə qadağan edirəm.
–Bu məndən asılı deyil, - deyə balaca şahzadə pərt halda cavab verdi. Uzun səyahət etmişəm, yatmamışam…
–Onda sənə əmr edirəm, əsnə! - kral ona dedi. Neçə illərdən bəri əsnəyən adam görməmişəm. Əsnəmək mənim üçün maraqlı və əyləncəlidir. Hə!, yenə əsnə. Əmr edirəm sənə.
–Mən çəkinirəm… Daha əsnəyə bilmərəm…

Balaca şahzadə qıpqırmızı qızardı.
–Hm! hm! - kral dilləndi. Onda sənə əmr edirəm hərdən əsnə, hərdən də əsnəmə…
Əsəbi görünən kral bir az dodaqaltı donquldandı.

Kralın istədiyi o idi ki, onun əmrinə sözsüz riayət etsinlər. İtaətsizliyə o dözmürdü. O, mütləq hökmdar idi. Amma rəhmdil və ədalətli olduğundan verdiyi əmrlər də ağıllı və tədbirli olurdu. Kral deyirdi: "Əgər mən generala əmr etsəm ki, qiyafəsini dəyişib qağayı quşu olsun və belə halda general mənim əmrimə tabe olmazsa, bu generalın günahı deyil. Bu mənim gunahımdır".
–Əyləşə bilərəmmi? - deyə balaca şahzadə utana-utana soruşur.
–Əmr edirəm əyləşin, kral cavab verdi və sincab xəzli paltosununu ətəyini əzəmətlə yığışdırdı.

Amma balaca şahzadənə təəccüb götürmüşdü. Bu balaca planetdə kral nəyə hökmranlıq edə bilərdi?
–Əlahəzrət, üzr istəyirəm, sizə sual verə bilərəmmi…
–Sizə əmr edirəm, sual verin, - kral tələsə-tələsə dedi.
–Əlahəzrət,… Siz nəyi idarə edirsiz?
–Hər şeyi, - sadə və aydın şəkildə kral cavab verdi.
–Hər şeyi?

Kral təvazökar bir jestlə əlini dolaşdırıb öz planetini, o biri planetləri və ulduzları göstərdi.
–Bütün bunları siz idarə edirsiz? - balaca şahzadə yenə də soruşdu.
–Bəli, bütün bunları mən idarə edirəm, - krad cavab verdi.
O təkcə mütləq hökmdar deyil, eyni zamanda hüdudsuz kainatın hakimi-ixtiyarı idi.
–Ulduzlar da sizə itaət edirmi?
–Əlbəttə, - kral cavab verir. Onlar mənim itaətimdə dərhal hazır olur. İtaətsizliyə dözə bilmirəm mən.

Belə bir hökmranlıqdan, belə bir səlahiyyətdən balaca şahzadə vəcdə gəlmişdir. Onun belə bir qüdrəti olsaydı, gündə qırx dörd dəfə yox, yetmiş iki dəfə, hətta yüz dəfə, lap iki yüz dəfə günəşin qürubuna tamaşa edərdi, stulunu heç o tərəf bu tərəfə sürüşdürməzdi də, onu yerindən də tərpətməzdi. Tərk etdiyi balaca planetindən ötrü darıxan və özünü kədərli hiss edən balaca şahzadə cürət edib hökmdardan bir xahiş etdi:
–Günəşin qürub etməsinə baxmaq istərdim… Lütfən məni məmnun edin… Günəşə əmr edin qüruba ensin…
–Əgər mən generala kəpənək kimi güldən-gülə qonmağı, ya bir faciə əsəri yazmağı və ya qağayı quşuna çevrilməyi əmr etsəm və general bu əmrləri icra etməsə, günahkar kim olacaq, general, ya mən?
–Əlbəttə siz, əlahəzrət, - balaca şahzadə qətiyyətlə dedi.
–Düz deyirsiniz, hər kəsdən bacardığı şeyi tələb etmək lazımdır, - hökmdar əlavə etdi. Hakimiyyət ağıla söykənməlidir, ağıl və zəka üzərində bərqərar olmalıdır. Sən xalqına, özünü dənizə atmağı əmr etsən, xalq inqilab edər, sənə qarşı üsyana qalxar. Mənə itaət etməyi tələb etməyə haqqım var, çünki əmrlərim ədalətli və ağıllı əmrlərdir.

Verdiyi sualı heç vaxt unutmayan və cavab almayınca sakitləşməyən balaca şahzadə hökmdara xatırlatdı:
–Günəşin qüruba enməsi nə oldu bəs?
–Günəşin batmasını indi görərsən. Bunu tələb edəcəm mən. Amma bunun üçün əlverişli şəraitin yaramanısnı gözləyəcəm. Hökmdarın ağıllı və tədbirli olması bax elə bundadır.
–Bəs Günəş nə vaxt qürub edəcək? - balaca şahzadə öyrənmək istədi.
–Hm! hm! - kral cavab verdi. O əvvəlcə böyük bir təqvimə baxdı, hm! hm! Gün qürub edəcək, saat… saat… Bu axşam saat yeddi qırxa yaxın! Mənə qarşı olan itaətkarlığın sən özün şahidi olacaqsan.

Balaca şahzadə əsnədi. Günəşin qürubuna tamaşa edə bilməməsinə təəssüflənirdi. Həm də bir az darıxırdı. O, krala dedi:
–Burada daha mənlik iş yoxdur, çıxım gedim!

Bir rəiyyəti olmaqdan iftixar hissi duyan kral ona dedi:

–Getmə, getmə, səni nazir təyin edəcəm!
–Nə naziri?
–Əd… ədliyyə naziri!
–Mühakimə etməyə adamınız da yoxdur!
–Bilmirəm, - kral dedi. –Ölkəni hələ gəzməmişəm. Yaşlı adamam, fayton üçün yer də yoxdur, piyada gəzmək isə məni yorur.
–Oho! Mən artıq baxmışam, - balaca şahzadə dedi. –Planetin o tayına bir daha baxmaq üçün qəddini əydi. Oralarda da kimsə yoxdur…
–Elə isə sən öz-özünü mühakimə edərsən, - kral dedi. Düzdür, bu çətin işdir. Adamın öz-özünü mühakimə etməsi başqasını mühakimə etməkdən qat-qat çətindir. Əgər sən öz-özünü mühakimə edə bilsən, deməli sən əsl müdrik adamsan.
–Mən, - balaca şahzadə dedi, –Mən öz-özümü hardasa başqa yerdə mühakimə edə bilərəm. Burada yaşamaq fikrim yoxdur.
–Hm! hm!, - kral qımıldandı, mənə elə gəlir ki, mənim planetimdə qoca bir siçovul var. Gecələr onun səsini eşidirəm. Bax bu qoca siçovulu mühakimə edə bilərsən. Hərdən bir onu ölüm cəzasına da məhkum edərsən. Beləcə həyat sənin ədalətindən asılı olacaq. Amma onu qoruyub saxlamaq üçün hər dəfə onu əfv etmək gərəkdir. Axı o yeganədir.
–Mən ölümə məhkum etməyi sevmirəm. Məncə, çıxıb buradan getsəm yaxşıdır.
–Yox, kral etiraz etdi.

Balaca şahzadə yola hazırlığını qurtarsa da qoca monarxı məyus da etmək istəmədi. O, dedi:
–Əgər əlahəzrət buyruqlarının dəqiq yerinə yetirilməsini istəyirsə, onda mənə ağıllı və tədbirli əmrlər verə bilərdi. Məsələn, mənə əmr edə bilərdi bir dəqiqədən gec olmayaraq yola düşüm. Məncə yola çıxmaq üçün şərait də əlverişlidir…

Kralın cavab verməməsi balaca şahzadəni çaş-baş saldı, ani tərəddüddən sonra köksünü ötürərək yola düşdü.
–Səni səfir təyin edirəm, - kral onun arxasınca ucadan tələm-tələsik dedi.

O, kralın etirazı ilə barışmayaraq şahanə bir görkəm aldı.

“Bu böyük adamlar çox qəribədir” - balaca şahzadə yoluna davam edərək öz-özünə dedi.

## XI

İkinci planetin sakini şöhrətpərəstin biri idi. O, balaca şahzadəni uzaqdan görən kimi ucadan dedi:
–Oh! Oh! Pərəstişkar da gəlib çıxdı!
Çünki şöhrətpərəstlər üçün yerdə qalan adamların hamısı pərəstişkardır, onlara valeh olanlardır, onların vurğunudur.

Balaca şahzadə dedi:
–Salam. Sizin nə qəribə şlyapanız var.
–Bu, təzim etmək üçündür, - deyə, şöhrətpərəst cavab verdi. – Bu məni alqışlayanlara öz minnətdarlığımı bildirmək üçündür. Bədbəxtlikdən, burdan heç vaxt heç kim ötüb keçmir.



Bir şey anlamayan balaca şahzadə dedi:
–Beləmi?
–Əl çal, - deyə, şöhrətpərəst qonağa məsləhət verdi.

Balaca şahzadə əl çaldı. Şöhrətpərəst şlyapasını qaldırıb təvazökarlıqla onu salamladı.

Balaca şahzadə ürəyində fikirləşdi:
–Bu, kralı ziyarət etməkdən daha əyləncəlidir.

Sonra isə, yenidən əl çalmağa başladı. Şöhrətpərəst də yenə şlyapasını qaldıraraq onu salamladı.

Beş dəqiqəlik eyni hərəkətləri təkrar edəndən sonra, balaca şahzadə oyunun yeknəsəkliyindən bezikdi. Balaca şahzadə soruşdu:
–Bəs nə etmək lazımdır ki, şlyapa yerə düşsün?
Amma şöhrətpərəst eşitmədi. Şöhrətpərəstlər, yalnız tərifləri yaxşı eşidirlər.
–Sən doğrudanmı mənə çox pərəstiş edirsən? - deyə, o, balaca şahzadədən soruşdu.
–"Pərəstiş" nə deməkdir?
–"Pərəstiş etmək" mənim bu planetin ən ağıllı, ən varlı, ən yaxşı geyinmiş və ən gözəl adamı olduğumu etiraf etmək deməkdir.
–Axı bu planetdə sən təksən, səndən başqa burda kimsə yaşamır!
–Məni məmnun et. Necə olsa da mənə vurğunluğunu bildir!
–Yaxşı, mən sənə valehəm, - deyə, balaca şahzadə yüngülcə çiyinlərini çəkərək cavab verdi, - amma bu valeh olmağın sənə xeyri nədir, bu səni niyə axı maraqlandırır?

Balaca şahzadə oradan uzaqlaşır.

"Böyük adamlar, doğrudan da qəribə olurlar" - deyə balaca şahzadə sadəlövhlüklə öz-özünə dedi və səyahətini davam etdirmək məqsədilə yola düzəldi.

## XII

Növbəti planetdə bir əyyaş məskunlaşmışdı. Bu ziyarət çox qısa oldu, lakin balaca şahzadəni həddindən artıq məyus etdi:
–Balaca şahzadə bu planetə ayaq basanda onun qarşılaşdığı ilk adam elə bu əyyaş oldu. Bu içki düşkünü ətrafına düzülmüş dolu və boş şüşə kolleksiyalarının arasında səssiz-səmirsiz oturmuşdu. Balaca şahzadənin "Sən burada nə edirsən?" sualına əyyaş hüznlü bir görkəmlə:
–İçirəm, - deyə, cavab verdi.
–Niyə içirsən? - balaca şahzadə yenə soruşdu.
–Unutmaq üçün, - əyyaş cavab verdi.
–Nəyi unutmaq üçün? - deyə balaca şahzadə mülayim səslə soruşdu. Onun əyyaşa yazığı gəldi.
–Utandığımı unutmaq üçün, başını aşağı salaraq, içki düşkünü etiraf etdi.



Biçarə əyyaşa kömək etmək arzusu ilə balaca şahzadə soruşdu:
–Nədən utanırsan?
–İçməyimdən utanıram, - deyə əyyaş sorğu-suala birdəfəlik son qoydu və dərin bir sükuta büründü.
Gördüklərindən pərt olmuş və karıxmış balaca şahzadə ordan da çıxıb getdi. Yol gedə-gedə öz-özünə fikirləşirdi: "Böyüklər doğrudan da çox, lap çox qəribə adamlardır".

## XIII

Dördüncü planet bir biznesmenin planeti idi. Bu adam o qədər məşğul idi ki, balaca şahzadə gələndə, o, hətta başını belə qaldırmadı.

Balaca şahzadə dedi:

–Salam. Sizin papirosunuz sönüb.
–Üç üstə gəl iki – beş. Beş üstə gəl yeddi – on iki. On iki üstə gəl üç – on beş. Salam. On beş üstə gəl yeddi – iyirmi iki. İyirmi iki üstə gəl altı – iyirmi səkkiz. Kibrit yandırmağa vaxtım yoxdur. İyirmi altı üstə gəl beş – otuz bir. Of! Deməli elədi beş yüz bir milyon altı yüz iyirmi iki min altı yüz otuz bir.
–Beş yüz milyon nə?
–Hə? Sən hələ də burdasan? Beş yüz bir milyon… bilmirəm nə… O qədər işim var ki! Mən ciddi adamam, cəfəngiyyat və sərsəm işlərlə məşğul olmuram! İki üstə gəl beş – yeddi…
–Beş yüz bir milyon nə?, - deyə, balaca şahzadə təkrar etdi. O, verdiyi suala cavab almayınca əl çəkməzdi.

Biznesmen başını qaldırdı:
–Bu planetdə yaşadığım əlli dörd ildən bəri məni cəmi üç dəfə narahat ediblər. Birinci dəfə, iyirmi iki il bundan qabaq. Allah bilir hardansa buralarda bir may böcəyi peyda olmuşdu. Onun vızıltısı, qopardığı hay-həşir məni elə çaşdırdı ki, toplamada dörd səhv etdim. Ikinci dəfə, bu on bir il bundan əvvəl olub, yel xəstəliyinin böhranı ucbatından. Çox otururdum, hərəkət etmirdim. Gəzib dolanmağa vaxtım yox idi. Mən, ciddi adamam. Üçüncü dəfə də ki… bax budur! Deməli, mən beş yüz bir milyon…
–Milyon nə?

Biznesmen başa düşdü ki, balaca şahzadənin suallarına cavab verməsə rahatlığı olmayacaq.
–Bəzən səmada görünən milyonlarla balaca-balaca şeylər.
–Milçək?
–Canım yox ey, parıldayan balaca şeylər.
–Arı?
–Yox, yox. Tənbəlləri xəyala daldıran qızılı rəngli balaca şeylər. Mən isə, mən ciddi adamam. Mənim xəyala dalmağa vaxtım yoxdur.



–Hə! Tapdım. Ulduzları deyirsən?
–Elədir ki, var. Ulduzlar.
–Beş yüz milyon ulduz sənin nəyinə gərəkdir axı?
–Beş yüz bir milyon altı yüz iyirmi iki min yeddi yüz otuz bir. Mən ciddi adamam, dəqiq olmağı sevirəm.
–Bu ulduzlar sənin nəyinə gərəkdir?
–Nəyimə gərəkdr?
–Bəli.
–Heç nəyimə. Mən sadəcə onların sahibiyəm.
–Sən ulduzların sahibisən?
–Bəli.
–Mən bir kral gördüm, o da…
–Krallar nəyəsə sahib olmurlar. Onlar hökmranlıq edirlər. Onlar idarə edirlər. Bunlar tamamilə müxtəlif şeylərdir.
–Ulduzlara sahib olmağın sənə xeyri nədir?
–Xeyri odur ki, mən varlanıram, zəngin oluram.
–Bəs varlanmaq nəyinə lazımdır?
–Yeni kəşf olunan ulduzları almaq üçün varlı olmaq mənə lazımdır.

"Bunun mühakiməsi bir az əvvəlki əyyaşın mühakiməsinə oxşayır. Ikisi də görünür eyni ağıldadır" - deyə balaca şahzadə öz-özünə düşündü. Bununla belə, o, yenə də suallar verdi:
–Ulduzlara axı necə sahib olmaq olar?
–Bəs ulduzlar kimindir?, - deyə, biznesmen narazı halda etiraz etdi.
–Bilmirəm. Heç kimin.
–Elə isə, onlar mənimkidir. Çünki, bu barədə ilk dəfə düşünən mən olmuşam.

–Məgər, fikirləşmək kifayətdir?
–Əlbəttə. Əgər sən heç kimə məxsus olmayan bir brilyant tapırsansa, deməli, o, sənindir. Əgər sən heç kimə məxsus olmayan bir ada tapırsansa, deməli, o, sənindir. Əgər, bir fikir sənin ağlına birinci gəlirsə, sən ona görə müəlliflik diplomu alırsan: o da sənindir. Ulduzların sahibi isə mənəm, bir halda ki, məndən qabaq heç vaxt heç kim onlara sahib olmaq fikrinə düşməmişdir.
–Bu, düzdür, balaca şahzadə dedi. Bəs onları neyləyirsən sən?
Biznesmen isə cavabında:
–Onları idarə edirəm. Onlar mənim ixtiyarımdadır. Onları sayıram, sonra bir də sayıram. Bu çətindir. Amma mən ciddi adamam!

Cavab balaca şahzadəni hələ də təmin etmirdi.
–Mənim, misal üçün, əgər bir boyun yaylığım varsa, mən onu boynuma dolayıb özümlə apara bilərəm. Və yaxud, bir gülüm varsa, onu dərib özümlə apara bilərəm. Amma sən, ulduzları özünlə apara bilməzsən!
–Apara bilmərəm, amma onları banka qoya bilərəm.
–O, nə deməkdir?
–Bu, o deməkdir ki, mən bir kağız parçasına öz ulduzlarımın sayını yazıram. Sonra isə bu kağızı siyirtməyə qoyub açarla bağlayıram.
–Vəssalam?
–Bu kifayət edər!
Balaca şahzadə düşündü: "Bu, maraqlı və gülməlidir, hətta şairanədir, amma, bir elə ciddi deyil". Balaca şahzadənin ciddi şeylər haqqında fikirləri, böyüklərin fikirlərindən tamamilə fərqli idi.

O yenidən sözə başladı:
–Mənim bir gülüm var. Hər gün onu sulayıram. Mənim üç vulkanım var. Hər həftə onları təmizləyirəm. Hələ sönmüş vulkanı da. Bilmək olmaz. Hər şey ola bilər. Mənim onlara sahib olmağımın həm gülə, həm də vulkanlara xeyri var. Sən isə, ulduzlar üçün zərrə qədər də olsa faydalı deyilsən.

Biznesmen ağzını açdı ki, nəsə desin, lakin cavab üçün söz tapa bilmədi. Balaca şahzadə isə səyahətini davam etdirmək məqsədilə yola düzəldi. "Böyüklər, tamamilə qəribə adamlardır" - deyə o, sadəlövhlüklə düşündü.

## XIV

Beşinci planet çox maraqlı idi. Bu, planetlərin ən balacası idi. Orda, vur-tut küçə fənəri və fənərə baxan üçün yer elə ancaq çatırdı. Balaca şahzadə, heç cürə başa düşə bilmirdi ki, hardasa bu səmada, evsiz-eşiksiz, eləcə də əhalisiz bir planetdə küçə fənərinin və fənərçinin olması kimə lazım idi. Bununla belə, o, öz-özünə düşündü : "Bəlkə bu adam da absurddur. Bununla belə kral, şöhrətpərəst, biznesmen və əyyaş, bu adama baxanda daha çox absurddurlar. Bunun işinin heç olmasa bir mənası var. O, öz küçə fənərini yandıranda, sanki, daha bir ulduz və ya bir gül yaranır. Küçə fənərini söndürəndə isə, sanki gülü və ya ulduzu yatırdır. Bu çox gözəl məşğuliyyətdir. Gözəldirsə, deməli həqiqətən də faydalıdır".



Balaca şahzadə planetə yaxınlaşan kimi fənərçini hörmətlə salamladı :
–Salam. Niyə indicə öz küçə fənərini söndürdün?
–Göstəriş belədir, - deyə fənərçi cavab verdi. –Salam.
–Bu nə göstərişdir?
–Küçə fənərimi söndürmək göstərişi. Axşamın xeyir. –O, fənəri yenidən yandırdı.
–Bəs indicə onu təzədən niyə yandırdın?
–Bu göstərişdir, - fənərçi cavab verdi.
Balaca şahzadə dedi:

–Heç nə başa düşmürəm.
Fənərçi cavab olaraq:
–Burda başa düşüləsi bir şey də yoxdur. Göstəriş göstərişdir. Sabahın xeyir. O, öz fənərini yenidən söndürdü.

Sonra o, qırmızı dama-dama burun dəsmalı ilə alnının tərini sildi.
–Mənim peşəm dəhşətli dərəcədə ağırdı. Əvvəllər bu peşə səmərəli peşə idi. Gündüzlər fənəri söndürür, axşamlar isə yandırırdım. Günün qalan hissəsini istirahət edir, gecələr isə yatırdım.
–Həmin dövrdən sonra göstiriş dəyişildi?
Fənərçi dedi:
–Göstəriş dəyişilmədi. Bədbəxtlik də elə burasındadır! Planet ildən-ilə daha sürətlə fırlanmağa başladı, göstəriş isə əvvəlki kimi dəyişilməz qaldı!
–Bəs indi nə oldu? –deyə balaca şahzadə soruşdu.
–İndi planet bir dəqiqədə bir dəfə dövr edir və mənim bir saniyə belə boş vaxtım yoxdur ki, istirahət edim. Dəqiqədə bir dəfə fənəri yandırıb söndürürəm!
–Maraqlıdır! Deməli sənin planetində bir gün bir dəqiqəyə bərabərdir!

Fənərçi etiraz edərək dedi:
–Burada maraqlı heç nə görmürəm mən. Səninlə burada düz bir aydır ki, söhbət edirəm.
–Bir ay?
–Bəli. Bəli. Otuz dəqiqə. Otuz gün! Axşamın xeyir.
O yenidən öz fənərini yandırdı.

Balaca şahzadə fənərçiyə baxdı və göstərişə belə sadiq, əmrə belə müntəzir olan fənərçini ürəkdən sevdi. O əvvəllər Günəşin qürub etməsinə baxmaq üçün stulunu bir yerdən başqa yerə sürüşdürdüyünü xatırladı. O, dostuna kömək etmək məqsədilə fənərçiyə dedi:
–Bura bax… Sənə elə bir yol deyəcəm, istədiyin vaxt dincələ biləcəksən…
Fənərçi dedi:
–Mən həmişə istirahət etmək arzusundayam.
Çünki sözə sadiq ola-ola, eyni zamanda tənbəllik də etmək olar.

Balaca şahzadə davam etdi:
–Sənin planetin o qədər balacadır ki, üç addıma onu dolana bilərsən. Sən elə asta-asta yeriməlisən ki, həmişə günəş səmtində qalasan. Dincəlmək istəyəndə fasiləsiz yeri… O zaman gün istədiyin qədər uzanar.
–Bu mənim üçün o qədər də böyük fayda verməyəcək, - fənərçi qeyd etdi. –Mənim həyatda ən çox xoşladığım şey yatmaqdır.
Balaca şahzadə dedi:
–Onda sənin işin fənadır.
Fənərçi balaca şahzadənin fikri ilə razılaşdı:
–Bəli, işim pisdir. Bəxtim gətirmir. Salam.
O, küçə fənərini söndürdü.

Səyahətini daha uzaq mənzillərə davam etdirən balaca şahzadə öz-özünə dedi: “Buna hamısı nifrət edəcək, şah da, şöhrətpərəst də, əyyaş da, biznesmen də. Bununla belə, o mənə gülünc görünməyən yeganə adamdır. Bəlkə də ona görə ki, o özü haqqında yox, başqa şeylər barədə düşünür”.
Balaca şahzadə təəssüf dolu bir ah çəkdi və yenə öz-özünə dedi: “Bax belə adamla dost ola bilərdim. Lakin onun planeti, həqiqətən, çox balacadır. Orada iki nəfər üçün yer olmaz”…

Balaca şahzadə bir şeydən mütəəssir olduğunu etiraf etməyə cürət etmirdi… O da bu planetdə iyirmi dörd saat ərzində neçə min dörd yüz qırx dəfə Günəşin qürub etməsinə tamaşa etməyin mümkünlüyü idi.

## XV

Altıncı planet əvvəlkindən on dəfə böyük idi. Bu planetin sakini qoca bir cənab idi. O, qalın-qalın kitablar yazırdı.

O, balaca şahzadəni görüb ucadan dedi:
–Hələ bir baxın! Budur tədqiqatçı!
Balaca şahzadə nəfəsini dərmək üçün stolun üstündə oturdu. O, uzun-uzadı o qədər səyahət etmişdi ki!
–Sən hardan gəlirsən?, - deyə yaşlı Cənab ondan soruşdu.

–Siz burada nə edirsiz? Bu qalın kitab nədir? –deyə balaca şahzadə suala sualla cavab verdi. Nə işlə məşğul olursunuz?
–Mən coğrafiyaşünasam, - qoca cənab cavab verdi.
–"Coğrafiyaşünas" nədir?
–Alimdir, dənizlərin, çayların, şəhərlərin, dağların və səhraların harda yerləşdiyini bilən alim.

Balaca şahzadə dedi:
–Bu, çox maraqlıdır. Bax bu əsl peşədir! Sonra isə, o, ətrafına, coğrafiyaşünasın planetinə ötəri bir nəzər saldı. O hələ indiyə kimi belə əzəmətli planet görməmişdi.
Balaca şahzadə əlavə etdi:
–Sizin planetiniz çox gözəldir. Burda okeanlar necə, varmı?
–Mən onu bilə bilmərəm, - deyə, coğrafiyaşünas cavab verdi.
–Ah! (Balaca şahzadə məyus olmuşdu). Bəs dağlar?
–Onu da bilə bilmərəm, - coğrafiyaşünas dedi.
–Bəs şəhərlər, çaylar, səhralar necə?
–Bunları də bilə bilmərəm, - coğrafiyaşünas dedi.
–Bəs siz axı coğrafiyaşünassız!
–Elədir, - coğrafiyaşünas təsdiq etdi, - lakin, mən tədqiqatçı deyiləm. Mənim bir nəfər də olsun tədqiqatçım yoxdur. Şəhərlərin, çayların, dağların, dənizlərin, okeanların və səhraların hesabını coğrafiyaşünas aparmamalıdır. Coğrafiyaşünas mühüm peşə sahibidir. Onun avaralanmağa vaxtı yoxdur. O öz kabinetindən demək olar ki, çıxmır. Oradaca tədqiqatçıları qəbul edir. O onları sorğu-sual edir və onların dediklərini qeyd edir. Əgər tədqiqatçılardan hər hansı birinin danışdıqları coğrafiyaşünasın marağına səbəb olsa, onda coğrafiyaşünas həmin tədqiqatçının əxlaqı ilə bağlı yoxlama aparır, onun təmiz adam olub-olmamasını öyrənir.
–Bu yoxlama nəyə görədir?
–Ona görədir ki, tədqiqatçı yalan demiş olsa, onda coğrafiya kitabları fəlakət kitabları olacaq. Çox içən tədqiqatçı da həmçinin, bu da bədbəxtlikdir.
–Nə səbəbə? –deyə balaca şahzadə soruşdu.
–Çünki əyyaşın gözünə bir şey iki görünür. Onda coğrafiyaşünas da bir dağı iki dağ kimi qeyd etmək məcburiyyətində qalacaq. Bir yerdə cəmi bir dağ olduğu halda onu iki qeyd edəcək.



Balaca şahzadə dedi:
–Mən bir nəfər tanıyırdım, o pis tədqiqatçı idi.
–Ola bilər. Deməli, əgər tədqiqatçının əxlaqı təmizdirsə, onun kəşfi üzərində yoxlama aparılır.
–Yoxlamanı necə aparırlar? Gedib yerindəcə baxıb yoxlayırlar?
–Yox. Bu çox mürəkkəb işdir. Tələb olunur ki, tədqiqatçı əşyayi-dəlil gətirsin. Məsələn, əgər söhbət böyük bir dağın kəşfindən gedirsə, həmin dağdan böyük daşlar gətirilməsi tədqiqatçıdan tələb olunur.

Coğrafiyaşünas birdən həyəcanlandı.
–Lap sənin özün, sən uzaqdan gəlirsən. Özün də tədqiqatçısan! Elə isə öz planetini mənə təsvir elə!
Bu sözü deyib, coğrafiyaşünas qeyd kitabçasıı açdı və qələmini çərtdi. Tədqiqatçıların şərhi əvvəlcə qələmlə qeydə alınır. Sonra dəlil-sübut gətirəndən sonra onu mürəkkəblə yazırlar.
–Hə, buyur, planetin haqda danış! –deyə coğrafiyaşünas dedi.
Balaca şahzadə dedi:
–O! Mənim planetim çox da maraqlı deyil, tamam balacadır. Mənim üç vulkanım var. Onlardan ikisi fəaliyyətdədir, biri isə sönmüş vulkandır. Lakin hər şey ola bilər.

Coğrafiyaşünas təsdiq etdi:
–Düz deyirsiz, hər şey ola bilər.
–Mənim bir gülüm də var.
–Biz gülləri qeydə almırıq, - coğrafiyaşünas dedi.

–Niyə axı! Gül ən gözəl şeydir!
–Çünki güllər ötəridir, müvəqqətidir.
–"Ötəri" nə deməkdir?
–Coğrafiya kitabları bütün kitablardan qat-qat qiymətlidir. Onlar heç vaxt köhnəlmir. Dağı yerindən oynatmaq, onun yerini dəyişmək çox nadir haldır. Eləcə də okeanın quruması, bu da nadir hal hesab edilir. Biz dəyişməz və əbədi şeylərdən yazırıq.
–Amma sönmüş vulkanlar oyana da bilirlər, - deyə balaca şahzadə onun sözünü kəsdi. "Ötəri" nə deməkdir?

Coğrafiyaşünas dedi:
–Vulkanların sönməsi və ya oyanaraq püskürməsi biz coğrafiyaşünaslar üçün o qədər də əhəmiyyətli deyil. Bizim üçün sayılan şey dağdır, o heç vaxt dəyişilmir.
Bütün həyatı boyu verdiyi suala cavab almayınca əl çəkməyən balaca şahzadə təkrar soruşdu:
–"Ötəri" nə deməkdir?
–Bu o deməkdir ki, həmin şeyin yaxın zamanlarda məhv olmaq təhlükəsi var.
–Belə çıxır ki, mənim gülümü də yaxın vaxtlarda yox olmaq təhlükəsi gözləyir?
–Əlbəttə.
"Mənim gülüm ötəridir", deyə balaca şahzadə öz-özünə düşündü. "Özü də həyatda özünü müdafiə etmək üçün vur-tut dörd tikanı var! Mən isə onu öz planetimdə tənha qoyub getmişəm!"

Balaca şahzadə tək qoyub gəldiyi gül üçün ilk dəfə təəssüfləndi. Lakin birdən-birə cəsarətə gələrək müsahibindən soruşdu:
–Mənə haranı ziyarət etməyi məsləhət görürsünüz?
–Yer planetini, - deyə coğrafiyaşünas cavab verdi. Onun yaxşı şöhrəti var…

Balaca şahzadə fikirli halda yola düşdü, lakin onun fikri öz planetində tək-tənha qoyub gəldiyi gülün yanında idi.

## XVI

Balaca şahzadənin getdiyi yeddinci planet Yer oldu.

Yer sizin düşündüyünüz qədər sadə planet deyil! Burada yüz on bir kral (əlbəttə, zəncilərin krallarını unutmamaq şərtilə), yeddi min coğrafiyaşünas, doqquz yüz min biznesmen, yeddi milyon yarım əyyaş, üç yüz on bir milyon şöhrətpərəst, təxminən iki milyarda yaxın yaşlı vardır.

Yerin böyüklüyü haqda sizdə doğru təsəvvür yaratmaq üçün deyim ki, elektrik işığı ixtira edilməmişdən qabaq, altı qitənin hamısında dörd yüz altmış iki min beş yüz on bir fənərçidən ibarət böyük bir ordu saxlamaq lazım gəlirdi.

Kənardan baxanda fənərçilərin hərəkəti gözəl bir tamaşanı xatırladırdı. Burada hər şey, bütün hərəkətlər opera baletində olduğu kimi dəqiq nizamlanmışdı. Əvvəlcə, Avstraliya və Yeni Zelandiya fənərçilərinin çıxışı başlayırdı. Onlar öz fənərlərini yandırdıqdan sonra, hamılıqla yatmağa gedirdi. Sonra Sibir və Çin fənərçiləri öz növbələrində rəqsə daxil olurdular. Sonra isə onlar da həmçinin pərdə arxasına keçirdilər. Onların ardınca Hindistan və Rusiya fənərçilərinin növbəsi gəlib çatırdı. Sonra Avropa və Afrika fənərçilərinin növbəsi. Bundan sonra Cənubi Amerikalılar. Daha sonra Şimali Amerikalılar. Beləliklə, səhnəyə çıxarkən onların nizamı heç vaxt pozulmurdu, ardıcıllığa böyük dəqiqliklə hörmət olunurdu. Bu əzəmətli idi.

Təkcə, iki fənərçinin, - Şimal qütbündəki yeganə fənəri yandıran fənərçinin və onun həmkarı, cənub qütbünün yeganə fənərçisinin işi yüngül və xətərsiz idi. Onlar qayğısız bir həyat tərzi keçirirdilər: ildə yalnız iki dəfə işləyirdilər.

## XVII

Nəsə ağıllı bir şey demək istəyəndə, bəzən qeyri-ixtiyari olaraq dediklərinin gözünə bir az da yalan qatmalı olursan. Mən sizə fənərçilərdən danışanda, bir az haqsızlığa yol verdim. Bizim planetimizi tanımayanlarda qorxuram, bu haqda yanlış təsəvvür yaransın. Adamlar yer üzərində çox az yer tuturlar. Əgər yer üzərində məskunlaşmış iki milyard əhalinin hamısı, nümayişdə olduğu kimi, ayaqüstə bir az da sıx və mehriban vəziyyətdə bir yerə toplaşsa, onlar, eni və uzunu iyirmi mil olan kütləvi bir meydana rahatca sığarlar. Bəşər övladlarının hamısını Sakit okeanın ən balaca adasında yerləşdirmək olardı.

Böyüklər, şübhəsiz ki, sizə inanmayacaqlar. Onlara elə gəlir ki, çox yer tuturlar. Onlar özləri-özlərini baobab ağacları kimi əhəmiyyətli və təşəxxüslü sayırlar. Onda, siz onlara dəqiq hesab aparmağı məsləhət görün. Bu onların xoşuna gələcək. Axı böyüklər rəqəmləri çox sevirlər. Siz isə bu hesablamaya-zada vaxt sərf etməyin, mənasız şeydir. Siz mənə onsuz da etibar edirsiz və inanırsız.

Yer üzərinə gəlib çıxan kimi balaca şahzadə heç bir bəni-insan görmədiyindən çox təəccübləndi. Səhvən başqa bir planetə gəlib çıxdığını güman etdiyindən qorxu hissi onu çulğadı. Elə bu vaxt qumun üstündə ay rəngli halqavari bir şeyin tərpəndiyini gördü.

Balaca şahzadə hər ehtimala qarşı ona:
–Axşamınız xeyir, - dedi.
–Hər vaxtınız xeyir, - ilan cavab verdi.
–Mən indi hansı planetdəyəm?, - deyə balaca şahzadə soruşdu.
–Yerdə, özü də Afrikada, - deyə ilan cavab verdi.
–Hə, belə de! Bəs yer üzündə adam yaşamır?
–Bura səhradır. Səhralarda adam yaşamır. Amma Yer kürəsi böyükdür, - ilan cavab verdi.

Balaca şahzadə bir daşın üstündə oturub gözlərini səmaya tərəf qaldırdı.
–Mən öz-özümə deyirəm ki, ulduzlar yəqin ona görə işıqlandırılıb ki, qoy hər kəs öz ulduzunu bir gün axtarıb tapa bilsin. Mənim planetimə bax. O, düz bizim başımızın üstündədir… Bizdən nə çox uzaqdadır!
–Sənin planetin gözəldir. Bəs bura, Yerə nə üçün gəlmisən?, - ilan soruşdu.
Balaca şahzadə dedi:
–Mənim bir gül ilə bəzi çətinliklərim var.
–Ah! –ilan inildədi və sonra hər ikisi susdu.
–Adamlar bəs haradadır?, - deyə, balaca şahzadə, nəhayət, bir də dilləndi. Səhrada tənhalıqdır…
İlan dedi:
–Adamların özləri də əsasən tənhadır.





Balaca şahzadə ilanı uzun-uzadı süzdü!
–Sən qəribə heyvansan, - nəhayət o, ilana dedi, - bir barmaq nazikliyindəsən…
İlan etiraz edərək:
–Mənim gücüm kral barmağının gücündən qat-qat çoxdur, - dedi.
Balaca şahzadənin dodaqlarında təbəssüm göründü:
–Sən, o qədər də qüdrətli deyilsən… Sənin heç pəncələrin də yoxdur… Heç səyahət də edə bilmirsən.
İlan etiraz edərək dedi:
–Mən səni gəmilərin apara biləcəyindən də uzaq mənzilə apararam.
O, qızıl bilərzik kimi, balaca şahzadənin topuğuna sarıldı.
–Mən kimə toxunsam, onu yarandığı torpağa qaytararam, - deyə, o bir daha qeyd etdi. Lakin, sən paksan, təmizsən, ulduzdan gəlirsən…

Balaca şahzadə cavab vermədi. İlan sözünə davam edərək:
–Sənə yazığım gəlir. Sən bu qranit kimi möhkəm Yer üzündə çox zəif görünürsən. Əgər sən, bir gün öz planetin üçün darıxsan, Yer üzərinə gəlməyinə təəssüflənsən, mən sənə kömək edə bilərəm. Mən səni…
Balaca şahzadə dedi:
–O! Mən səni çox yaxşı başa düşdüm. Amma niyə sən həmişə müəmmalı danışırsan?
–Mən bütün müəmmaları həll edirəm, - ilan dedi.

Sonra hər ikisi susdu.

## XVIII

Balaca şahzadə səhranı başdan-başa keçdi, yolda vur-tut yalnız bircə gülə rast gəldi. Bu, üç ləçəkdən başqa heç nəyi olmayan təmtəraqsız adi bir gül idi…
–Salam, - deyə şahzadə onu ədəb-ərkanla salamladı.



–Salam, - deyə gül ona cavab verdi.
–Bəs hardadır adamlar?, - deyə balaca şahzadə nəzakətlə soruşdu.

Gül, günlərin bir günü bir karvan keçdiyini görmüşdü:
–Adamlar? Hə, yadımdadır. Mənə elə gəlir ki, onlar ya altı, ya da yeddi nəfər idi. Mən onları neçə il bundan əvvəl görmüşəm. Amma, bilmirəm onları necə tapmaq olar. Külək onları idarə edir, əsdiyi səmtə aparır. Onların kökləri olmadığından çox əziyyət çəkirlər.
–Əlvida, - balaca şahzadə dedi.
–Əlvida, - gül dedi.

## XIX

Balaca şahzadə uca bir dağa qalxdı. İlk dəfə idi ki, o, belə hündür dağ görürdü. Onun indiyə qədər tanıdığı yeganə dağlar dizindən olan üç vulkan idi. O, da bu sönmüş vulkanlardan kətil kimi istifadə edirdi. “Bunun kimi hündür bir dağın zirvəsindən bir nəzər salmaqla, - deyə, o, öz-özünə fikirləşdi, - mən bütün planeti və bütün insanları görə bilərəm”… Lakin o, sıldırım qayaların şiş uclarından başqa heç nə görmədi.

O, hər ehtimala qarşı dedi:
–Salam.
–Salam… salam.. salam, - əks-səda eşidildi.
–Siz kimsiniz?, - deyə, balaca şahzadə soruşdu.
–Siz kimsiniz… siz kimsiniz… siz kimsini… əks-səda eşidildi.
–Gəlin dost olaq, mən təkəm – o dedi.
–Mən təkəm… mən təkəm… mən təkəm…, - əks-səda eşidildi.



“Nə qəribə planetir!, - deyə balaca şahzadə düşündü. Tamamilə quru, ucu şiş qayalar, büsbütün duz qatı ilə örtülü bir planet. İnsanları da dərin ağıllı deyil. Onlar tutuquşu kimi yalnız deyilənləri tərar edirlər… Planetimdə bir gülüm var idi: söhbətə həmişə o, birinci başladı…”

## XX

İş elə gətirdi ki, balaca şahzadə qarlı, qumlu, qayalı yerlərdə xeyli gəzib-dolaşandan sonra, nəhayət gəlib bir yola çıxdı. Bütün yollar isə bir qayda olaraq insanlara doğru aparır. O dedi:
–Salam.

O, qızılgüllər açmış bir bağa gəlib çıxmışdı.
–Salam, - deyə qızılgüllər cavab verdilər.
Balaca şahzadə onlara baxdı. Bu güllərin hamısı necə də onun gülünə oxşayırdı.
–Siz kimsiniz? –deyə balaca şahzadə heyrətlə onlardan soruşdu.
–Biz qızılgüllərik, - deyə onlar cavab verdilər.
–Aha!, - balaca şahzadə fikrə getdi…

Birdən-birə o, özünü çox bədbəxt hiss elədi. Gülünün ona, bütün kainatda yeganə olması haqqında danışdıqlarını xatırladı. Lakin, budur, eynilə həmin güldən beş mini! Özü də hələ təkcə bir bağda!





"Mənim gülüm bu gülləri görsəydi, özünü bütünlüklə təhqir olunmuş hesab edərdi…, - deyə, o, öz-özünə fikirləşdi. O, möhkəm öskürərdi və gülünc vəziyyətə düşməmək üçün özünü elə göstərərdi ki, guya ölür. Mən isə ona qulluq etmək məcburiyyəti qarşısında qalardım. Əks halda, o, məni alçaltmaq üçün ölə bilərdi…"

O öz-özünə yenə fikirləşdi: "Mən dünyada nadir, bəlkə də yeganə bir gülə sahib olduğumu güman etdiyimdən özümü zəngin sayırdım. Sən demə, mənim qızılgülüm minlərlə adi güllərdən biri imiş. Mənim varım-yoxum vur-tut bu güldən və dizimə qədər boy verən, bəlkə də həmişəlik sönmüş üç vulkandan ibarətmiş. Vulkanlardan biri də sönmüşdür, bəlkə də həmişəlik. Bu mənim yaxşı şahzadə olmağıma dəlalət eləmir…" O otların üstünə uzanıb ağladı.

## XXI

Elə bu vaxt tülkü gəlib çıxdı. O, salam verdi. Balaca şahzadə nəzakətlə onun salamını aldı, lakin çevrilib ətrafına baxdıqda heç kimi görmədi. Həmin səs yenidən eşidildi:
–Mən burdayam, alma ağacının altında…
–Sən kimsən?, - deyə balaca şahzadə soruşdu, sən necə də gözəlsən!
–Mən tülküyəm, - o cavab verdi.
–Gəl birlikdə oynayaq, - balaca şahzadə ona təklif etdi. Mən elə qəmliyəm ki…
–Mən səninlə oynaya bilmərəm, mən əhliləşməmişəm, - deyə tülkü boyun qaçırdı.
Balaca şahzadə:
–Ah! Elə isə bağışla, - dedi.
Lakin, bir az fikirləşəndən sonra, əlavə etdi:
–"Əhliləşmək" nə deməkdir?
–Aha! Deməli sən buralı deyilsən. Bəs burda nə axtarırsan? –deyə tülkü soruşdu.
–Adamları axtarıram, - deyə balaca şahzadə cavab verdi. –"Əhliləşmək" nə deməkdir?
Tülkü isə cavabında dedi:
–Eh! Adamlar, onların tüfəngləri var, ov edirlər. Bu çox bekara və narahat işdir! Onlar hələ toyuq da saxlayırlar. Bu onların yeganə maraqlandığı şeydir. Sən toyuq axtarırsan?





Balaca şahzadə cavab verdi:
–Xeyr, mən dost axtarıram. Bəs "əhliləşmək" nə deməkdir?

–Bu çoxdan köhnəlib unudulmuş bir sözdür, - deyə tülkü bildirdi. –Mənası “əlaqə yaratmaq” deməkdir.
–Əlaqə yaratmaq?
–Əlbəttə, - tülkü təsdiq etdi. –Sən, hələlik, mənim nəzərimdə balaca bir oğlansan, yüz minlərlə balaca oğlanlar kimi. Nə sən mənə lazımsan, nə də mən sənə. Çünki mən də sənin nəzərində yüz minlərlə digər tülkülərə bənzəyən bir tülküyəm. Amma sən məni əhliləşdirsən, onda, bizim bir-birimizə ehtiyacımız olacaq. Sən mənim üçün dünyada yeganə olacaqsan, mən də sənin üçün…

Balaca şahzadə dedi:
–Deyəsən mən yavaş-yavaş anlamağa başlayıram. Bir gül var… mənə elə gəlir ki, o, əhliləşdirilib…
Tülkü razılaşaraq:
–Niyə də olmasın, yer üzündə elə şeylərə rast gəlirsən ki… - dedi:
–Amma o gül Yer Kürəsində deyil, - balaca şahzadə inkar etdi.
Bu, tülküyə çox maraqlı göründü.
–Bəs hardadır? Ayrı bir planetdə?
–Hə.
–Həmin o planetdə də ovçu var?
–Yox.
–Bax bu çox maraqlıdır. Bəs toyuq necə?
–Yox.
Tülkü ah çəkdi. Həyatda heç şey qüsursuz olmur.
–Hər şey kamil ola bilməz.

Lakin, tülkü, yenidən öz əvvəlki fikrinə qayıtdı.
–Mənim həyatım yeknəsəkdir. Mən toyuqları ovlayıram, adamlar da məni. Bütün toyuqlar bir-birinə oxşayır, bütün insanlar da bir-birinə oxşayır. Bu da məni bezikdirir. Amma, sən məni əhliləşdirsən, həyatım işıqlanacaq. Mən sənin ayaq səsini digər ayaq səslərindən fərqləndirməyi bacaracam. O biri ayaq səsləri məni yuvama girməyə məcbur edirdisə, səninki məni musiqi kimi yuvadan bayıra səsləyəcək. Bir o tərəflərə baxın! Buğda zəmilərini görürsünüzmü? Mən çörək yeyən deyiləm. Taxıl mənim üçün faydasız bir şeydir. Taxıl zəmiləri nədənsə məni dindirmir. Bu da mənim üçün kədər doğurur. Sənin qızılı saçların var. Məni əhliləşdirsən nə qiyamət olar! Qızılı rəngli buğdaları görəndə səni xatırlayacam. Zəmilərin xışıltı ilə dalğalanmasını da sevəcəm.



Tülkü susdu və uzun-uzadı balaca şahzadəyə baxdı:
–Xahiş edirəm… Əhliləşdir məni! –dedi.
–Böyük həvəslə edərdim, - balaca şahzadə cavab verdi, - amma vaxtım azdır. Mən özümə hələ dostlar tapmalıyam və çoxlu şeylər öyrənməliyəm.
Tülkü dedi:
–Yalnız məftun olduğun və məftun elədiyin şeyi yaxşı öyrənmək olar. İnsanların isə nəyisə yaxşı öyrənməsi üçün qətiyyən vaxtları yoxdur. Onlar dükanlardan hər şeyi artıq hazır vəziyyətdə alırlar. Dost satıcı, dost tacir olmadığından, insanların da dostu yoxdur. Əgər sən dost istəyirsənsə, onda məni əhliləşdir.
–Bunun üçün nə etmək lazımdır?, - deyə balaca şahzadə soruşdu.
–Çox səbrli olmaq lazımdır, - tülkü cavab verdi, - Sən əvvəlcə məndən bir az aralı, beləcə otların üstündə oturacaqsan. Mən sənə çəpəki baxacağam, sən isə dinib danışmayacaqsan. Sözlər qarşılıqlı anlaşmaya yalnız mane olar. Günü-gündən mənə bir az yaxın otura bilərsən…

Ertəsi gün balaca şahzadə yenə ora gəldi.
–Lap yaxşı olardı ki, sən hər gün eyni vaxtda gələsən,-tülkü dedi. –Məsələn, əgər sən günortadan sonra saat dörddə gələcəksənsə, mən saat üçdən özümü xoşbəxt hiss etməyə başlayacağam. Vaxt yaxınlaşdıqca mən özümü daha da xoşbəxt sayacam. Saat dörddə, mən artıq həyəcanlanmağa və narahat olmağa başlayacağam; mən xoşbəxtliyin dəyərini anlayacam! Amma sən müxtəlif saatlarda, istədiyin vaxt gəlsən, onda mən

bilməyəcəm ki, ürəyimi xoşbəxtliyin hansı anına sazlayım, hansı vaxtına kökləyim… Onu mərasim kimi keçirmək lazımdır.
–Mərasim nə deməkdir? –balaca şahzadə soruşdu.
Tülkü caıvab verdi:
–Bu da çoxdan yaddan çıxmış şeydir. Bu, bir saatın o biri saatlara, bir günün digər günlərə oxşamamasıdır. Məsələn, mənim ovçularım hər cümə axşamı bayram mərasimi keçirirlər. Onlar kəndin qızları ilə rəqs edirlər. Deməli, cümə axşamı gözəl bir gündür. Mən isə gəzə-gəzə düz üzümlüyə qədər gedib çıxıram. Əgər ovçular nə vaxt gəldi rəqs eləsəydilər, onda bütün günlər bir-birinə oxşayardı və mən də rahatca gəzməyə çıxa bilməzdim, istirahətim olmazdı.

Beləliklə, balaca şahzadə tülkünü əhliləşdirdi. Ayrılıq məqamı yaxınlaşanda isə tülkü ah çəkdi və:
–Məni ağlamaq tutacaq, - dedi.
Balaca şahzadə dedi:
–Öz günahındır. Mən səni kədərləndirmək fikrində deyildim. Səni qəmli görməyi qəti arzulamırdım, sən özün istədin ki, səni əhliləşdirim.
–Əlbəttə, - tülkü dedi.
–Axı sən ağlayacaqsan!, - balaca şahzadə israrla dedi.
–Əlbəttə, - tülkü cavab verdi.
–Deməli, bu əhliləşdirmədən sən heç nə qazanmırsan!
Tülkü dedi:
–Mən bundan çox şey qazanıram, sarı, qızılı sünbüllər haqqında söylədiklərimi xatırla, - sonra əlavə etdi:
–Get, o güllərə bir bax. Sən başa düşəcəksən ki, sənin qızılgülün dünyada yeganədir. Sonra mənimlə vidalaşmağa gələndə, mən bir sirri sənə ərməğan edəcəyəm. Bu da mənim sənə hədiyyəm olar.

Balaca şahzadə qızılgülləri görməyə getdi.
–Siz qətiyyən mənim qızılgülümə oxşamırsınız, siz heç nəsiniz. – O onlara dedi. – Heç kim sizə məftun olmayıb, siz də heç kimə məftun deyilsiniz. Siz əhliləşməyibsiz. Siz indi mənim tülkümün əvvəlki vəziyyətindəsiniz. O, yüz minlərlə digər tülkülərdən heç nə ilə fərqlənmirdi. Lakin, mən onunla dostlaşandan sonra indi, o, dünyada yeganədir.

Güllər pərt oldu.

–Siz gözəlsiniz, amma içiniz boşdur, - deyə, o, yenə sözünə davam etdi. – Sizə görə adam özünü fəda vermək istəməz. Əlbəttə, adi bir yolçu mənim gülümə baxıb fikirləşə bilər ki, o da eynilə sizlərə oxşayır. Ancaq o tənha gül sizin hamınızdan mənə daha əzizdir. Bir halda ki, məhz onu mən sulamışam. Sizləri yox, məhz onu şüşə örtüklə örtmüşəm. Məhz onu mən arakəsmə ilə küləkdən qorumuşam. Məhz onun xatirinə kəpənək qurdlarını qırmışam. (Onlardan yalnız iki-üç tırtıl saxlamışdım ki, böyüyüb kəpənək olsunlar). Məhz onun şikayətlənməsinə, özünü öyməsinə və hətta bəzən susmasına da mən qulaq asmışam. Çünki, o, mənim qızılgülümdür, özümündür.

Sonra o, tülkünün yanına qayıtdı və:
–Əlvida! –dedi…
–Əlvida! –tülkü dedi. –Sənə deyəcəyim sirr bax budur, qulaq as. O, çox sadədir; yalnız ürəklə yaxşı görmək olur. Ən əsas şeyləri gözlə görmək olmur.
–Ən əsas şeyləri gözlə görmək olmur, - deyə, balaca şahzadə yadda saxlamaq üçün bir daha təkrar etdi.
–Sənin qızılgülün sənin üçün ona görə qiymətli və əzizdir ki, sən bütün həyatını ona sərf etmisən, qiymətli vaxtını ona həsr etmisən.
Balaca şahzadə daha yaxşı yadda saxlamaq üçün təkrar etdi:
–Qızılgülümə bütün həyatımı sərf etmişəm…
Tülkü dedi:
–İnsanlar bu həqiqəti unudublar, amma sən bunu unutmamalısan. Sən əhliləşdirdiyinə həmişəlik cavabdeh olursan. Sən öz qızılgülünə cavabdehsən…
–Mən öz qızılgülümə cavabdehəm, deyə balaca şahzadə unutmamaq üçün təkrar etdi.

## XXII

–Salam, - Balaca şahzadə dedi.
–Salam, - yolayıran salamı aldı.
–Sən burada nə edirsən? –deyə balaca şahzadə soruşdu.

–Mən sərnişinləri seçib min-min ayırıram və onları qatarla yola salıram, - yolayıran cavab verdi. Onları aparan qatarın birini sağa, digərini isə sola göndərirəm.

Yaxşı işıqlandırılmış sürət qatarı göy gurultusunu xatırladan gurultulu səslə elə ötüb keçdi ki, yolayıranın budkası əsim-əsim əsdi.
Balaca şahzadə təəccüblə:
–Onlar nə yaman tələsirlər. Görəsən nə axtarırlar?
–Bunu maşinistin heç özü də bilmir, - deyə, yolayıran cavab verdi.
Əks istiqamətdə hərəkət edən daha bir sürət qatarı. O da işıq saça-saça gurultu ilə ötüb keçdi.
–Onlar artıq qayıdırlar? –deyə balaca şahzadə soruşdu.
Yolayıran dedi:
–Yox, bu başqa qatardır. Əks istiqamətə gedir.
–Olduqları yerdən razı qalmadılar?
–Adam heç vaxt olduğu yerdən razı qalmır, - yolayıran cavab verdi.

Üçüncü sürət qatarı işıq saça-saça guruldadı.

Balaca şahzadə soruşdu:
–Bu sərnişinlər bayaqkılara çatmaq istəyirlər?
–Onlar heç nə istəmirlər, - deyə yolayıran cavab verdi. –Onlar qatarda yatırlar, ya da əsnəyirlər. Təkcə uşaqlar burunlarını şüşəyə yapışdırıb bayıra baxırlar.
Balaca şahzadə dedi:
–Təkcə uşaqlar nə etdiklərini bilirlər. Onlar parçadan düzəldilmiş bir gəlinciyə ürəklərini bütövlükdə verirlər. Həmin gəlincik uşaqlar üçün son dərəcə qiymətli bir şeyə çevrilir. Əgər o gəlinciyi uşaqların əlindən tutub alsan, onlar ağlayarlar.
Yolayıran dedi:
–Onların bəxti gətirib.

## XXIII

–Salam, - balaca şahzadə dedi.
–Salam, - tacir onun salamını aldı. Bu, təkmilləşdirilmiş həb taciri idi. Bu həb susuzluğu dərhal yatırırdı. Birini qəbul etsən, bütün həftə boyu su içmək istəməzsən.
–Sən bunu niyə satırsan?, - deyə balaca şahzadə soruşdu.



Tacir dedi:
–Bu, vaxta qənaət etmək üçün mühüm bir şeydir. Onu atanda, mütəxəssislərin hesablamalarına görə, həftədə əlli üç dəqiqəyə qənaət edirsən.
–Bəs bu əlli üç dəqiqədə nə etmək olar?
–Nə istəyirsən, onu da elə…

Balaca şahzadə öz-özünə fikirləşir: "Əgər mənim həftədə əlli üç dəqiqə artıq vaxtım olsaydı, tələsmədən, yavaş-yavaş bulağa tərəf gedərdim…"

## XXIV

Səhrada qəzaya düşdüyüm gündən bir həftə keçirdi. Götürdüyüm su ehtiyatının son damcısını içə-içə tacirin hekayətinə qulaq asırdım.

Mən balaca şahzadəyə dedim:
–Ah! Sənin xatirələrin necə də gözəldir, lakin mən təyyarəmi hələ təmir etməmişəm. İçməyə daha suyum da qalmayıb. Sənin dediyin kimi, mən də yavaş-yavaş bulağa tərəf gedə bilsəydim, özümü xoşbəxt sayardım.
O, mənə dedi:
–Mənim dostum tülkü…

–Ay mənim əzizim, indi tülkü-mülkü vaxtı deyil!
–Niyə?
–Çünki, susuzluqdan öləcəyəm…

O, mənim fikrimi başa düşmədən cavab verdi:
–Adam lap öləndə də, dostu olmaq yaxşı şeydir. Məsələn, mən çox şadam ki, tülkü kimi dostum var…
Mən öz-özümə dedim: "O, təhlükənin böyüklüyünü təsəvvür etmir. Ona nə var, aclığın və susuzluğun nə olduğunu o, heç vaxt bilməmişdi. Bir az günəş şüası onun üçün kifayətdir…"
Lakin o mənə baxdı və fikirlərimi oxuyurmuş kimi cavab verdi:
–Mən də su istəyirəm… gəl bir quyu axtaraq…
Mən yorğunluqdan əlimi ahəstə-ahəstə tərpətdim: bu ucsuz-bucaqsız səhrada bəxtə-bəxt quyu axtarmaq boş şey idi. Bununla belə, biz quyu axtarışına başladıq.

Lal-dinməz saatlarla getdik. Gecə düşdü, ulduzlar səmada parlamağa başladı. Susuzluqdan bədənimə qızdırma-titrətmə gəlmişdi, ulduzları mən sanki yuxuda görürdüm. Balaca şahzadənin sözləri xatirəmdən çıxmırdı.
–Deməli, sən də susuzsan?, - deyə ondan soruşdum.
Lakin o, mənim sualıma cavab vermədi. Sadəcə mənə dedi:
–Suyun ürəyə də xeyri ola bilər…
Onun cavabını başa düşməsəm də, dübarə heç nə soruşmayıb susdum… Mən yaxşı bilirdim ki, onu sorğu-suala tutmaq lazım deyil.

Balaca şahzadə yorulmuşdu. O oturdu. Mən də onun yanında oturdum. Bir az sükutdan sonra, o yenə dedi:
–Mənim tənha gülümün sayəsində ulduzlar da gözəl görünür. Heyf ki, buradan gülü görə bilmirik…
Ay işığında apaydın görünən dalğa-dalğa qumlardan gözümü çəkmədən:
–Əlbəttə, düz deyirsiniz, - deyə onun dediklərini təsdiqlədim.
–Səhra gözəldir, - deyə o, əlavə etdi.
Bu, doğrudan da belə idi. Səhra mənim həmişə xoşuma gəlib. Bir qum təpəsinin üstündə oturursan. Heç nə görmürsən. Heç nə eşitmirsən. Bununla belə, bu sakitlikdə nə isə parıldayır, nə isə işarır…



Balaca şahzadə dedi:
–Səhranı daha gözəl eləyən onun haradasa gizlətdiyi bulağın varlığıdır…
Məni təəccübləndirən o idi ki, qumlardan gələn əsrarəngiz nur işığının məlahətini mən birdən-birə anladım, hiss etdim. O zamanlar, lap balaca olanda, köhnə bir evdə yaşayırdım. Söz-söhbət gedirdi ki, həmin evdə guya xəzinə basdırılıb. Deyilənlərə görə gizlədilmiş xəzinəni indiyə kimi tapan olmayıb, bəlkə də heç axtaran da olmayıb. Bəlkə elə o gizlədilmiş dəfinəyə görə evimiz çox füsunkar və heyrətamiz dərəcədə gözəl görünürdü. Axı ev öz sinəsinin dərinliyində mühüm bir sirr gizlədirdi…

Mən balaca şahzadəyə dedim:
–Elədir, fərqi yoxdur, söhbət nədən gedir, evdən, ulduzlardan, ya da səhradan. Onların gözəlliyi gözümüzlə görə bilmədiklərimizdir.
Balaca şahzadə dedi:
–Mən şadam ki, sən mənim dostum tülkümlə eyni fikri bölüşdürürsən.
Balaca şahzadə yuxuya getdiyindən mən onu qucağıma götürüb yoluma davam etdim. Həyəcanlı idim. Mənə elə gəlirdi ki, ufaq və zərif bir xəzinə aparıram. Elə bir xəzinə ki, ondan daha zərifi yer üzündə olmayıb. Mən, ay işığında bu solğun alına, bu qapanmış gözlərə, küləyin dalğalandırdığı bu çəngə-çəngə saça baxırdım və öz-özümə deyirdim: "Mənim bu gördüyüm yalnız zahirdir, qabıqdır. Ən əhəmiyyətlisi isə görünməzdir…"

Onun yarıaçıq dodaqlarında güclə sezilə biləcək təbəssümü görüb mən yenə öz-özümə dedim: "Məni bu yatmış balaca şahzadədə ən çox cəlb edən, onun bir gülə qarşı olan sədaqətidir, hətta yatanda belə lampa işığı kimi üzündə bərq vuran sevimli qızılgülünün surəti sezilirdi…" Mən onun göründüyündən daha zərif

olduğunu duydum. Lampaları yaxşı mühafizə etmək, qorumaq lazımdır; ani bir külək nəfəsi onları söndürə bilər…

Beləcə gəzə-gəzə, dan yeri sökülləndə nəhayət, bir quyu aşkar etdim.

## XXV

Balaca şahzadə dedi:
–İnsanlar sürət qatarlarına doluşurlar. Amma nə axtardıqlarını özləri də bilmirlər. Sonra başlayırlar hərəkət etməyə, eyni çevrə ətrafında fırlanmağa…
Sonra, o, əlavə etdi:
–Hamısı da lazımsız və lüzumsuz…
Bizim gəlib çatdığımız quyu heç də səhra quyularına oxşamırdı. Səhra quyuları adətən qumda qazılmış sadə yarğanlar olur. Bu isə əsl kənd quyusuna oxşayırdı. Lakin maraqlıdır ki, oralarda heç bir kənd-zad yox idi və mənə elə gəlirdi ki, yuxu görürəm.

Balaca şahzadəyə dedim:
–Qəribədir, burada hər şey hazırdır: çarx da, vedrə də, kəndir də…
O güldü, kəndirə toxundu və çarxı hərlətdi. Quyu çarxı uzun müddət istifadə olunmadığından cırıldadı. Onun cırıltısı küləyin çoxdan olmaması ucbatından pas atmış köhnə yelqovanın cırıltısını xatırlatdı.
–Eşidirsənmi, - deyə balaca şahzadə dilləndi, - biz bu quyunu oyadırıq, o da şadlığından oxuyur…
Mən istəmirdim ki, o güc işlədib yorulsun. Ona görə də dedim:
–Sənin üçün bu, çox ağırdır. Qoy suyu mən çəkim, sənin gücün çatmaz. Bu ağır işdir.
Dolu vedrəni ehmalca çəkib çıxartdım və onu quyunun qırağına qoydum. Çarxın nəğməsi qulaqlarımda hələ də səslənirdi və hələ də çalxalanan suda günəşin rəqs edən əksini görürdüm.

Balaca şahzadə dedi:
–Bu sudan içmək istəyirəm, ver ondan içim…
Mən onun nə axtardığını indi başa düşdüm.

Vedrəni onun dodaqları səviyyəsinə qaldırdım. Gözlərini yumub doyunca içdi… Balaca şahzadə üçün elə bil toy-bayram idi. Bu su qida maddəsi kimi anladığımız adi su deyildi. O, ulduzların altında getdiyimiz uzun yollardan, çarxın nəğməsindən, qolların qüdrətindən yaranmış su idi. Ürəyə məlhəm, ürəyə hədiyyə idi bu su. Hədiyyədən söhbət getmişkən, mən balaca oğlan olduğum vaxtlar Yeni il yolkasının çil-çıraqlarından, gecə yarısı eşidilən kilsə musiqisindən, aldığım Yeni il hədiyyələrinin bəxş etdiyi sevinc və təbəssümlərdən xoşhal və xoşbəxt olduğumu indi də unutmuram.

Balaca şahzadə dedi:
–Sizin adamlar eyni bir bağçada beş min qızılgül yetişdirirlər… və axtardıqlarını orda tapa bilmirlər…
–Tapa bilmirlər, - deyə mən razılaşdım…
–Axı, onlar axtardıqlarını tək bir qızılgüldə və ya bir qurtum suda tapa bilərdilər…
–Əlbəttə, - deyə mən cavab verdim.
Balaca şahzadə əlavə etdi:
–Gözlər kordur. Ürəklə, qəlblə axtarmaq lazımdır.
Mən su içdim. İndi yaxşı nəfəs alırdım. Dan yeri sökülləndə qum bal rənginə çalırdı. Bu mənzərədən ürəyim açılırdı, özümü xoşbəxt sayırdım. Kədərlənməyə heç bir əsas da yox idi.
–Lazımdır ki, sən vədinə əməl edəsən, - deyə, yenidən yanımda əyləşmiş balaca şahzadə astadan mənə müraciətlə dedi.
–Hansı vəd?
–Yadındamı… mənim qoyunum üçün buruntac… Mən bu gül üçün cavabdehəm axı!
Mən cibimdən şəkil eskizlərimi çıxartdım. Balaca şahzadə onlara baxıb gülə-gülə dedi:
–Sənin çəkdiyin baobablar bir az kələmə oxşayır…
–Oho!
Mən isə öz baobablarımla necə də fəxr edirdim!
–Sənin tülkünün… onun qulaqları… onlar o qədər uzundur ki, lap buynuza oxşayırlar!…
O, yenə də güldü.
–Sən haqlı deyilsən, əzizim, etiraf edim ki, mən şəkil çəkə bilmirəm. İlanı xaricdən və daxildən çəkməkdən savayı.
–O! Bu da yarayar, pis deyil, uşaqlar başa düşərlər, - deyə məni sakitləşdirmək istədi.
Mən qələmlə bir buruntac çəkdim. Bu şəkli balaca şahzadəyə verəndə ürəyim sıxıldı:

–Nəsə fikirli görünürsən, bu barədə mənə demək də istəmirsən… Mən istərdim sənin istək-arzundan xəbərdar olum…
Lakin cavab vermədi, sadəcə olaraq dedi:
–Bilirsənmi, mənim Yer kürəsinə düşməyimin… sabah bir ili tamam olur…
Bir az sükutdan sonra o, yenə dilləndi:
–Mən lap bu yaxınlara düşmüşdüm…

O qızardı.

Heç özüm də bilmədən yenidən qəribə bir kədər hissi keçirdim, ovqatım pozuldu. Bununla belə, ağlıma belə bir sual gəldi:
–Yadındamı, bir həftə əvvəl bütün yaşayış yerlərindən min mil aralı tamamilə tənha gəzişdiyin səhər? Onda bizim tanışlığımız təsadüfi olmadı, eləmi? Sən həmin düşdüyün nöqtəyə qayıdırdınmı?
Balaca şahzadə lap bərk qızardı.

Mən tərəddüdlə əlavə etdim:
–Bəlkə ildönümünə görə?…
O, yenə də qızardı. O, sualların heç birinə cavab vermirdi, lakin qızarmaq elə "hə" deməkdir, deyilmi?

Mən ona dedim:
–Ah! Mən qorxuram…
O isə cavabında:
–Sən indi işləməlisən. Maşınının yanına qayıtmalısan. Mən səni buradaca gözləyirəm. Sabah axşam qayıt…
Nədənsə ürəyim sakit deyildi. Tülkünü xatırlayırdım.

Əhliləşməyə verdiyin razılığa görə ağlamalı olursan.

## XVI

Quyunun yanında köhnə bir daş divarın dağılmış qalıqları var idi. Ertəsi gün axşam, işdən sonra onun yanına qayıdanda, uzaqdan balaca şahzadəmin divarın üstündə ayaqlarını sallayıb oturduğunu gördüm. Mən onun kiminləsə söhbət etdiyini eşitdim:
–Deməli, sən o yeri xatırlamırsan? - o, deyirdi. O, tam dəqiqliyi ilə bura deyil!
Şübhəsiz ki, kim isə ona cavab verdi, çünki balaca şahzadə etiraz etdi:
–Yox! Yox! Həmin gün olmağına həmin gündür, lakin həmin yer bura deyil…
Mən divara tərəf tələsdim. Hələ də heç kimi görmürdüm və heç nə eşitmirdim. Bununla belə balaca şahzadə yenidən kimə isə cavab verdi:
–Əlbəttə. Sən qumda mənim ləpirlərimin haradan başladığını görəcəksən. Sənə yalnız məni orda gözləmək qalır. Bu gecə mən ora gələcəm.
Mən divardan iyirmi metr aralı idim, lakin hələ də heç nə görmürdüm.

Bir az sükutdan sonra balaca şahzadə yenə də soruşdu:
–Zəhərin güclüdürmü? Əminsənmi ki, mən uzun müddət əzab çəkməyəcəyəm?
Mən dayandım. Ürəyim sıxılırdı, lakin hələ də heç nə başa düşmürdüm…

O, dedi:
–İndi get, aşağı tullanmaq istəyirəm!
Bu vaxt mən divarın aşağısına tərəf baxdım və yerimdən sıçradım! O orada idi. Başını balaca şahzadəyə tərəf qaldırmışdı… Zəhəri ilə adamı yarım dəqiqəyə öldürə bilən həmin o sarı ilanlardan birini görürdüm. Tapançanı çıxartmaq üçün cibimi eşələyə-eşələyə ilana tərəf cumdum. Ayaq səslərimi eşidən kimi ilan, qumun üstü ilə tələsmədən sürünməyə başladı, zəifləyən fəvvarə kimi xışıltısı azaldı, asta-asta daşların arasına girib yox oldu.

Hövləng divara tərəf qaçdım. Özümü balaca şahzadəyə vaxtında yetirib onu qollarımın arasına aldım. Onun bənizi qar kimi ağarmışdı.
–Bu nə qovğadır! İndi də ilanlarla söhbət edirsən?!
Həmişə boynuna bağladığı qızılı rəngli şərfi açdım. Gicgahlarını islatdım və bir az su da içirtdim. İndi cürət edib ondan heç nə soruşa bilmirdim. O, ciddi nəzərlərlə mənə baxıb qollarını boynuma doladı və məni bərk-bərk qucaqladı. Onun ürəyinin döyüntülərini hiss edirdim. Bu döyüntülər ovçu tərəfindən vurulub yerə salınmış, ölməkdə olan quş ürəyinin çırpıntılarını xatırladırdı. O mənə dedi:
–Mən şadam ki, sən təyyarənin nasazlığını tapıb düzəltmisən. İndi evinə qayıda bilərsən…
–Hardan bildin?

Mən ona demək istəyirdim ki, bütün gözlədiklərimin əksinə olaraq maşını düzəltməyə nail oldum! Bax, bunu sənə xəbər verməyə gəlmişdim.

O mənim sualıma cavab vermədi, amma əlavə etdi:
–Mən də bu gün evimə qayıdıram…
Sonra kədərli halda əlavə etdi:
–Mənim evim çox uzaqdadır… ora gedib çıxmaq çox çətindir…
Mən yaxşı hiss edirdim ki, nə isə qeyri-adi bir şey baş verir. Mən onu, balaca uşaq kimi qollarımın arasına alıb qucaqladım, amma mənə elə gəlirdi ki, qollarım arasından qopub düz ağzı aşağı, uçuruma, fəlakətə doğru gedəcək balaca dostumu bu yoldan saxlamağa iqtidarım çatmayacaq…

Onun sərt və ciddi baxışları harasa uzaqlara, ənginliklərə dikilmişdi.
–Sənin qoyunun məndədir. Onun üçün yeşik də. Hələ buruntac da…
O, qəmli-qəmli gülümsədi.

Mən uzun müddət gözlədim. Hiss edirdim ki, o, yavaş-yavaş isinir, özünə gəlir:
–Əzizim, sən yaman qorxdun ha…
Əlbəttə, o, bərk qorxmuşdu! Lakin, o, xəfifcə güldü:
–Bu axşam mən bundan da betər qorxacağam…
Dəfedilməz bədbəxtlik hissi mənə hakim kəsildi. Doğrudanmı mən onun gülüşlərini bir daha eşitməyəcəm? Bu mənə dözülməz dərəcədə ağır gəlirdi. Axı həmin gülüşlər mənim üçün səhrada bulaq kimi bir şey idi.
–Əzizim, mən yenə də sənin gülüşünü eşitmək istəyirəm…
Lakin o dedi:
–Bu gecə il tamam olacaq. Mənim ulduzum, keçən il düşdüyüm yerin düz üstündə bərqərar olacaq…
–Əzizim, bütün bunların hamısı – ilan əhvalatı da, görüş də, ulduz məsələsi də pis və qorxulu yuxudan başqa bir şey deyil, razısanmı?…
Lakin, o, mənim sualıma cavab vermədi. Mənə dedi:
–Ən əhəmiyyətli şeylər gözlə görmədiklərimizdir…
–Əlbəttə…
–Qızılgül kimi. Ulduzdakı bir gülü sevirsənsə, gecələr uduzlara baxmaq xoş olur. Bütün ulduzlar gül açır.
–Əlbəttə...
–Ya da ki, su. Xatırlayırsanmı… sənin mənə verdiyin su, elə bil musiqi idi, kəndirdən və çarxdan süzülüb gələn su… o, çox dadlı idi.
–Əlbəttə…
–Gecələr sən ulduzlara baxarsan. Mənim ulduzum çox balacadır, onu sənə göstərə bilmirəm. Belə yaxşıdır. Mənim ulduzum, sənə görə, çoxsaylı ulduzlardan biri olacaq. Onda, sən bütün ulduzlara baxmağı sevəcəksən… Onların hamısı sənin dostun olar. İndi isə sənə bir hədiyyəm var…

O, yenə də güldü.
–Ah! Balaca, əzizim, mən bu gülüşü bilsən nə qədər xoşlayıram!
–Elə bu da mənim sənə hədiyyəm olacaq… su kimi…
–Nə demək istəyirsən?
–Demək istəyirəm ki, hər adamın öz ulduzu var. Ulduzlar bir-birinə bənzəmir. Onlar ayrı-ayrı funksiyalar yerinə yetirir. Bəzilərinə-səyyahlara ulduzlar bələdçilik edir. Digərləri üçün onlar balaca işıqlardan başqa bir şey deyil. Bə'ziləri üçün isə, məsələn, alimlər üçün, onlar problemdir. Mənim biznesmenim üçün onlar qızıldır. Lakin, bütün adamlar üçünsə ulduzlar laldır, susurlar. Dinib danışmırlar. Sənin isə, heç kimin ulduzuna bənzəməyən ulduzların olacaq…
–Bunu necə başa düşməli?
–Gecələr, sən səmaya baxacaqsan, çünki orada mənim yaşadığım, mənim güldüyüm ulduz var. Sənə elə gələcək ki, bütün ulduzlar gülür. Sənin də gülə bilən ulduzların olacaq!

O, bir daha güldü.
–Sən təsəlli tapanda (gec-tez hamı təsəlli tapır) mənimlə tanışlığından məmnun olacaqsan. Sən həmişə mənim dostum olacaqsan. Sən mənimlə birlikdə gülmək istəyəcəksən. Hərdən pəncərəni, bax beləcə şadyanalıq üçün taybatay açacaqsan… sənin dostların isə, sənin səmaya baxıb güldüyünü görüb çox təəccüblənəcəklər. Onda sən onlara deyəcəksən: “Bəli, bəli, mən ulduzlara baxanda həmişə gülürəm!” Onlar güman edəcəklər ki, dəli olubsan. Mən də sənin başına bekara bir oyun açacam…
O, yenə də güldü.
–Elə çıxacaq ki, mən sənə ulduzların əvəzinə bir yığın gülən zınqrov vermişəm…
O, bir daha güldü. Sonra yenidən ciddiləşdi:
–Bu gecə… bilirsənmi... yaxşı olar gəlməyəsən…

–Mə səni tək qoymayacağam.
–Sənə elə gələcək ki, əziyyət çəkirəm… hətta elə fikirləşəcəksən ki, mən ölürəm. Bax, belə. Bütün bunları görməsən yaxşıdır. Heç görməyinə dəyməz də.
–Mən səni tənha buraxmayacam.
O bir az qayğılı və dalğın görünürdü.
–Onu da deyim ki… burada ilan məsələsi var… O, səni çala da bilər… İlanlar çox qəddar olur… Onlar elə-belə, kef üçün də adam çalırlar…
–Mən səninlə, sənin yanında olacam.
Amma nədənsə birdən-birə sakitləşdi:
–Doğrudur, onların zəhəri bir dəfə sancmaq üçün çatır. İkimizi də çala bilməz.
Həmin gecə, mən onun necə getdiyini görmədim. O, səssiz-səmirsiz sürüşüb aradan çıxmışdı. Mən ona arxadan çatanda o qəti və iri addımlarla irəliləyirdi. O, yalnız bunu dedi:
–Ah! Sən burdasan…
Əlimdən tutdu. Çox narahat görünürdü yenə:
–Nahaq gəldin. İztirab keçirəcəksən. Sənə elə gələcək ki, mən ölürəm, amma belə olmayacaq…
Mən isə susurdum.
–Görürsənmi… çox uzaqdır. Mən bu bədəni ora apara bilmərəm, çox ağırdır.
Mən isə susurdum.
–Bədəni tərk etmək, köhnə qlafı, köhnə qabığı tərk etmək kimi bir şeydir. Bunun üçün kədərlənməyə dəyməz…
Mən isə susurdum.

O bir az ruhdan düşdü. Lakin yenə səy etdi:
–Bilirsənmi, hər şey yaxşı olacaq. Mən də həmçinin ulduzlara baxacam. Ulduzların hamısı, mənim üçün, çarxı cırıldayan quyular kimi olacaq. Ulduzların hamısı mənə su süzəcəklər…
Mən isə susurdum.
–Bu elə maraqlı olacaq ki! Sənin beş yüz milyon zınqrovun olacaq, mənimsə, beş yüz milyon quyum…
O da, həmçinin, susdu, çünki ağlayırdı…
–Gəlib çatdıq. Qoy bu addımı sənsiz, tək atım.
O, oturdu, çünki qorxurdu.

O, yenidən sözə başladı:
–Bilirsənmi… mənim gülüm… mən ona cavabdehəm! O elə zəifdir ki! Elə sadəlövhdür ki! Özünü qorumaq üçün onun vur-tut dörd tikanı var. Dörd tikandan başqa dünyada heç nəyə gümanı gəlmir…
Mən də oturdum, çünki, daha ayaq üstə dura bilmirdim. O dedi:
–Budur… hər şey bitdi…
O, bir az tərəddüd etdi, sonra isə ayağa qalxdı. Bir addım atdı, mən isə tərpənə bilmirdim.

Onun topuğunun yanında sarı bir parıltı göründü. O, bir an hərəkətsiz donub qaldı. O qışqırmadı. Ağac yıxılan kimi, o, yavaşca yerə çökdü. Qumun üstünə yıxıldığından hətta səs də eşidilmədi.

## XXVII

İndi isə o vaxtdan artıq altı il keçib… Mən bu əhvalatı hələ heç vaxt, heç kimə nəql etməmişəm. Məni yenidən görən yoldaşlarım sağ-salamat olduğumu gördüklərinə çox şad idilər. Mən qəmli-ələmli idim, lakin dostlara deyirdim: "Bu, yorğunluqdandır…"

İndi isə bir az sakitləşmişəm. Daha doğrusu… tamamilə yox. Amma yaxşı bilirəm ki, o, artıq öz planetinə qayıdıb, çünki, hava işıqlananda onun cəsədini qumun üçtündə tapa bilmədim. Bu, o qədər də ağır cəsəd deyildi… Axşamlar isə ulduzlara qulaq asmağı xoşlayıram. Onlar, elə bil ki, beş yüz milyon zınqrovdur…

Amma bir şey məni mütəəssir edir. Balaca şahzadənin qoyunu üçün çəkdiyim buruntaca dəridən qayışı çəkməyi unutmuşam! Onu heç vaxt qoyunun başına keçirə bilməyəcək. Bu halda mən öz-özümdən soruşuram: "Görəsən onun planetində nə təzə xəbər? Çox güman ki, qoyun gülü yeyib…"

Bəzən öz-özümə deyirəm: "Əlbəttə ki, yox! Balaca şahzadə bütün gecələri öz gülünü şüşə örtüyün altında saxlayır və öz qoyununa da yaxşı nəzarət edir…" Onda, mən özümü xoşbəxt sanıram. Bütün ulduzlar da xısın-xısın gülürlər.

Bəzən də öz-özümə deyirəm: "Bir dəfə, iki dəfə fikir dağınıq olsa, hər şey baş verə bilər! Birdən o, axşam şüşə örtüyü unutdu və ya qoyun səssiz-səmirsiz gecə vaxtı ağıldan çıxdı…" Onda bütün zınqrovlar ağlayacaq!..

Əsl böyük sirr də elə bundadır. Necə ki, mənim üçün, eləcə də balaca şahzadəni sevən sizlər üçün laqeydlik bağışlanılmaz əməldir. Kainatın hər hansı regionunda haradasa tanımadığımız bir qoyunun bir qızılgülü yeməsinə laqeyd qala bilərik. Dünya gözəllikdən, bərbəzəkdən məhrum olar, bəlkə də yox…

Səmaya baxın. Öz-özünüzdən soruşun:
Görəsən qoyun qızılgülü yedi, ya yox? Siz onda görəcəksiiz ki, hər şey dəyişib başqa cür olacaq…

Bunun nə qədər əhəmiyyətli olduğunu böyüklər heç zaman başa düşə bilməyəcək!

---

*Mənbə: AZERİ.org, 2003*
*Fransız dilindən tərcümə edənlər: Əziz Gözəlsoy, Yaqut Qurbanova*
*Kitabın nəşrini Fransanın Azərbaycandakı səfirliyi maliyyələşdirmişdir. Kitab 2001-ci ildə Bakı şəhərində çap olunub. Kitabı AZER.com saytında əldə etmək olar və ya (994-12) 61-89-04 (ev), (994-50) 329-74-43 (mobil) nömrəli telefonlar vasitəsilə kitabın tərcüməçisi Əziz Gözəlsoya müraciət edə bilərsiniz.*
*Veb üçün hazırlayan: Arzu Ağayeva*